

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 06 - iyun 2019



**Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.**

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 06 - iyun 2019**



TƏSİSÇİ:
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

BAŞ REDAKTOR:
**Fikrət Məmmədov**

REDAKSİYA HEYƏTİ:
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Fuad Cavadov**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

BURAXILIŞA MƏSUL:
**Rasim Həsənov**





**Qaynar xətt**
**539-76-75**


# Mündəricat



## RƏSMİ MƏLUMAT


"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1264 nömrəli Sərəncamı ....4




## ƏDLİYYƏ XƏBƏRLƏRİ


Azərbaycan xalqının Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub ....5
"Azərbaycanda ədliyyə sektorunun nailiyyətləri: keçmişə və gələcəyə baxış" mövzusunda forum keçirilib ....6
Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr dünyada modeldir ....11
Gəncədə məhkəmə-hüquq islahatlarına dair geniş ictimai müzakirə keçirilib ....12
Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər ....14
Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir ....14
Ombudsmanların XVI Beynəlxalq Konfransı ....17
Azərbaycanın 2019-cu il üzrə Aİ Biznes Mühiti Hesabatı təqdim olunub ....18
Ədliyyə nazirinin müavini Toğrul Musayevin Avropa İttifaqı Biznes Mühiti Hesabatının təqdimatında çıxışı ....19
Azərbaycan-İsveçrə Birgə Komissiyasının növbəti iclası keçirilib ....21
Azərbaycanın məhkəmə-hüquq sahəsində islahatları təqdir olunur ....22

Tacikistan Azərbaycanın ədliyyə sahəsində innovasiyalara maraq göstərir ....23
Banqladeş penitensiar sahədə müsbət təcrübəmizdən bəhrələnmək niyyətindədir ....24
Məhkumlara tibbi xidmətdə müsbət təcrübəmiz dünyada örnəkdir ....24
Azərbaycan notariatındakı islahatlar beynəlxalq maraq doğurur ....27
Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyəti üçün təlimlər keçirilib ....28
İxtisaslaşdırılmış Məhkəmə Hakimləri İctimai Birliyinin üzvlərinin iştirakı ilə seminar keçirilib ....29
Ədliyyə Akademiyasının məlumatları ....30
Vətəndaşların virtual qəbulu keçirilib ....35
Bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür ....35

## YENİ QANUNLAR, FƏRMANLAR...

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1583-VQD nömrəli Qanunu ....36
“Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1588-VQD nömrəli Qanunu ....37
"İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli, 1596-VQD nömrəli Qanunu ....38
“Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin yaradılması haqqında" 2004-cü il 21 fevral tarixli 35 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" 2007-ci il 12 mart tarixli 543 nömrəli və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 iyun 737 nömrəli Fərmanı ....40
"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 iyun tarixli 754 nömrəli Fərmanı ....43
“Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1, 5, 18, 61 və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyası baxımından şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2019-cu il 7 iyun tarixli Qərarı ....43

“Qanunçuluq” jurnalı redaksiyasının kompüter mərkəzində yığılıb səhifələnmiş, “Ədliyyə Nəşriyyat Evi” MMC-də çap olunmuşdur.
“Ədliyyə Nəşriyyat Evi” MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: “Ədliyyə Nəşriyyat Evi” MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1837 Tiraj:1100 ədəd

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında**

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**



1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq pul təminatı vəzifə maaşlarının orta hesabla 40 faizi həcmində artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təklifləri əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artımı ilə bağlı təkliflərini beş gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. Bu Sərəncam 2019-cu il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 iyun 2019-cu il*
*N 1264*

# Azərbaycan xalqının Milli Qurtuluş Günü ədliyyə orqanlarında qeyd olunub

**Azərbaycan xalqının azadlığının, milli dövlətçiliyimizin müqəddəratının həll edildiyi ən ağır günlərdə - 1993-cü ilin iyunun 15-də ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı xalqımızın və müstəqil dövlətimizin xilasının başlanğıcı kimi qiymətləndirilərək bu tarixi hadisə ölkəmizdə ən əlamətdar bayramlardan olan Milli Qurtuluş Günü kimi geniş qeyd olunur.**




Bu əziz bayram münasibətilə Ədliyyə Nazirliyində və struktur qurumlarında tədbirlər keçirilib, ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz və işıqlı xatirəsi yad edilib. Heydər Əliyev muzeyində dahi öndərin həyat və fəaliyyətini əks etdirən zəngin və maraqlı ekspozisiyalarla tanışlıq olub, kinozalda əbədiyaşar liderə həsr olunmuş filmlər, eləcə də foto və video slaydlar nümayiş etdirilib, bir qrup ədliyyə işçiləri və könüllüləri rəsm sərgisində iştirak ediblər.

Milli Qurtuluş Günü ilə bağlı keçirilən tədbirlərdə dahi şəxsiyyət Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlərindən, xilaskarlıq missiyasından bəhs olunub, Ümummilli Liderin ölkə rəhbərliyinə qayıdışı ilə milli dövlətçiliyimizin inkişafının, Azərbaycanın hərtərəfli tərəqqisinin başlanıldığı qeyd edilib, Ulu Öndərin müəyyən etdiyi xalqımızın firavan gələcəyinə hesablanmış uğurlu siyasi kursun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək səviyyədə, ardıcıl və dönmədən davam etdirilərək respublikamızın gündən-günə çiçəklənməsi, xalqımızın bütün sahələrdə yüksək nailiyyətlər qazanması vurğulanıb.

Ümummilli Liderin dövlətçilik amallarına daim sadiq qalan ədliyyə işçiləri ölkə başçısının rəhbərliyi ilə xalqımızın və dövlətimizin bundan sonra da tarixi nailiyyətlərə və qələbələrə imza atacağına əminliyini ifadə ediblər.

# "Azərbaycanda ədliyyə sektorunun nailiyyətləri: keçmişə və gələcəyə baxış" mövzusunda forum keçirilib




**İyunun 4-də Bakıda Dünya Bankının təşkilatçılığı ilə "Azərbaycanda ədliyyə sektorunun nailiyyətləri: keçmişə və gələcəyə baxış" mövzusunda forum keçirilib.**

Forumda 120-dən çox nümayəndə, o cümlədən Nazirlər Kabinetinin məsul şəxsləri, Milli Məclisin deputatları, hökumət üzvləri, digər dövlət qurumlarının, məhkəmə hakimiyyətinin yüksək səviyyədə təmsilçiləri, elm və təhsil müəssisələrinin rəhbərliyi, diplomatik korpusun, biznes birliklərinin, vətəndaş cəmiyyətinin, Dünya Bankının nümayəndələri iştirak ediblər.

Tədbir ədliyyə sektorunda islahatların icrası zamanı qazanılan uğurların geniş auditoriyaya çatdırılmasına, Dünya Bankının Azərbaycan ilə əməkdaşlığının müsbət nəticələrinin dayanıqlılığını təmin edəcək gələcək çağırışlara və növbəti addımlara dair fikir mübadiləsinin aparılmasına həsr olunub.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon forumda çıxış edərək Azərbaycan ilə Dünya Bankı arasında səmərəli əməkdaşlığı qeyd edib, ədliyyə sistemində birgə həyata keçirilən uğurlu layihələr barədə məlumat verib. O, Azərbaycanın ədliyyə sektorunun tərəqqisindən, nailiyyətlərindən və bu sektorun müasirləşdirilməsi planlarından danışıb. Qeyd edib ki, Azərbaycan ədliyyə sektorunun müasirləşdirilməsi ilə bağlı böyük uğurlar qazanıb. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan məhkəmələrin səmərəliliyi, şəffaflığı, əlçatanlığı baxımından böyük nailiyyətlərə imza atıb. Bir çox elektron ədliyyə xidmətləri artıq digər ölkələrdə tətbiq edilir. Elektron məhkəmə texnologiyalarının istifadəsi məhkəmə strukturlarının məhsuldarlığını üç dəfə artırıb, bu sahədə vəsaitin qənaət edilməsinə imkan verib. Bu uğurlar Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, həmçinin ədliyyə sektorunda özünü dünyaya tanıtdırmağa imkan verir. Bir çox ölkələr ədliyyə sahəsində Azərbaycanın müsbət təcrübəsini bölüşməsi üçün Dünya Bankına müraciət edirlər.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev məhkəmə

sisteminin müasirləşdirilməsi ilə bağlı bir sıra fərmanlar imzalayıb. Bu sahədə aparılan uğurlu islahatlar məhkəmələrə əlçatanlığı təmin edib, sürün-



dürməçiliyin azaldılmasına müsbət təsir göstərib, xidmətlərin səmərəliliyini artırıb. Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanına əsasən bir sıra mühüm tədbirlərin reallaşdırılması nəzərdə tutulub. Dünya Bankı Azərbaycanın ədliyyə sahəsinin müasirləşdirilməsi istiqamətində gördüyü işləri və qazandığı uğurları təqdir edir. Bank mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu layihələri çərçivəsində müasirləşmə proseslərinə dəstək göstərməyə çalışır. Dövlət başçısı, müxtəlif qurumların rəhbərləri ədliyyə sektoru, ümumiyyətlə Azərbaycanın inkişafına qayğı ilə yanaşırlar. Bu müasirləşdirmə proseslərinin növbəti mərhələsi "Elektron məhkəmə" sisteminin bütün ölkə ərazisində tətbiqini, qadınlar və gənclər üçün ədliyyə xidmətlərinə çıxış imkanlarının təkmilləşdirilməsini, biznes üçün mübahisələrin alternativ həlli mexanizmlərinin təşviqi istiqamətində işlərin görülməsini nəzərdə tutur.

Sonra layihənin nəticələrinə dair videoçarx nümayiş etdirilib.

Tədbir Dünya Bankının ölkə üzrə meneceri Navid Həsən Naqvinin moderatorluğu ilə "Azərbaycanda ədliyyə sektorunda aparılan islahatlar çərçivəsində əldə olunan uğurlar, qarşılaşmış çətinliklər, eləcə də gələcək çağırışlar və növbəti addımlar" mövzusunda panel müzakirələrlə davam edib.

Müzakirələrdə Ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək Azərbaycanda ədliyyə sektorunda islahatların uğur-



larına, problem və yeni çağırışlara həsr olunmuş müzakirələrin bu sahədə inkişafa əlavə təkan verəcəyinə əminliyini bildirib. Nazir qeyd edib ki, Azərbaycan üçün demokratik inkişaf yolunu seçmiş xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən ölkəmizin məhkəmə-hüquq sistemi beynəlxalq prinsiplərə uyğun olaraq tamamilə yenidən qurulub. Üçpilləli müstəqil məhkəmə sistemi yaradılıb, şəffaf prosedurlarla hakim seçi-



mi aparılıb, məhkəmə nəzarəti institutu təsbit edilib, hər kəsin hüquq və azadlıqlarının məhkəmə müdafiəsinə təminat verilib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti seçildiyi vaxtdan dövlətimizin başçısı İlham Əliyevin siyasi iradəsi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi, Avropa standartlarına tam uyğunlaşdırılması məqsədilə müasirləşdirilməsi işinə başlanılıb. Məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan müstəqil qurum - Məhkəmə-Hüquq Şurası yaradılıb, məhkəmə fəaliyyəti ilə bağlı bütün məsələlər məhz onun səlahiyyətinə aid edilib. Məhkəmələrə müraciət imkanlarının və əlçatanlığın asanlaşdırılması məqsədilə bir çox yeni məhkəmələr təsis edilib, o cümlədən bölgələrdə apelyasiya və iqtisad məhkəmələri yaradılıb. İnsan hüquqlarının müdafiəsində mühüm rol oynayan inzibati ədliyyə fəaliyyətə başlayıb, hakimlərin və məhkəmə aparatı işçilərinin sayı iki dəfə artırılıb. Məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericiliyə mütərəqqi əlavə və dəyişikliklər edilib, Məhkəmə-Hüquq Şurasının səlahiyyətləri mütəmadi genişləndirilib.

Nazir uğurlardan danışarkən Dünya Bankı ilə birgə həyata keçirilən layihələr nəticəsində əldə edilmiş nailiyyətləri xüsusi vurğulayıb. Diqqətə çatdırıb ki, bu layihə çərçivəsində inşa olunmuş yeni, müasir binalar dövlətimizin başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamına uyğun olaraq "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi üzrə bütün zəruri infrastrukturla təchiz olunub. Hazırda 111 məhkəmənin 60 faizi bu sistemə qoşulub. "Elektron məhkəmə"nin bir çox komponentləri hazırda uğurla tətbiq olunur.

Qeyd edilib ki, Dünya Bankı ilə layihələr çərçivəsində mübahisələrin alternativ həlli sisteminin yaradılması, vəkillik institutunun, ədliyyə və məhkəmə qurumlarının institusional və idarəetmə potensialının gücləndirilməsi, pulsuz hüquqi yardımın göstərilməsi və sair üzrə tədbirlər görülüb, ədliyyə islahatlarına dəstək göstərilərək müxtəlif sahələr üzrə beynəlxalq təcrübəyə əsaslanan tövsiyələr hazırlanıb. Həmçinin əməkdaşlıq nəticəsində ərsəyə gəlmiş və səkkizinci ildir ki, fəaliyyət göstərən məhkəmə sisteminin Vahid Elektron Portalı mühüm əhəmiyyətə malikdir. Məhkəmə fəaliyyətində şəffaflığın təmin olunmasına xidmət edən və funksionallığı ilə fərqlənən bu portal vasitəsilə vətəndaşlar məhkəmələr və hakimlər haqqında dolğun məlumatlar ala, məhkəmələrə elektron müraciət edə, məhkəmə sənədlərinin nümunələri ilə tanış ola və onun digər imkanlarından istifadə edə bilərlər.

Təsadüfi deyil ki, Dünya Bankı həyata keçirilən birgə layihəni ən uğurlu layihələrindən biri kimi qiymətləndirib, o cümlədən "Vətəndaşlara daha yüksək keyfiyyətli xidmətlərin göstərilməsi məqsədilə innovativ üsulların yaradılması və tətbiqi" nominasiyasının qalibi elan edib. Bütün bunlar layihə çərçivəsində görülən işlərin uğurlu nəticəsinin real təzahürüdür. Nazir bu uğurların əldə edilməsində böyük zəhməti olan Dünya Bankının nümayəndələrinə minnətdarlığını bildirib.

Bu gün ədliyyənin digər sahələrində də elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirildiyini deyən Fikrət Məmmədov bəzi yenilikləri diqqətə çatdırıb. Bildirib ki, səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar xüsusi "Elektron notariat çantası" hazırlanıb. Elektron notariat informasiya sisteminə birbaşa çıxışı olan bu çanta vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür. Digər yenilik elektron ədliyyə köşküdür. Yalnız Azərbaycanda mövcud olan bu köşk vasitəsilə təxirə salınmayan hallarda məsafədən notariat hərəkətləri aparmaq mümkün olacaq. Bu köşklərin sərhəddə, hava və dəniz limanlarında, dəmir yolu vağzallarında quraşdırılması nəzərdə tutulur. Bu qurğular video-əlaqə vasitəsilə 24 saat ərzində notariat xidmətlərinin göstərilməsinə və müvafiq sənədlərin əldə edilməsinə imkan verir. Belə köşk artıq hava limanında quraşdırılaraq ikinci aydır ki, istifadəyə verilib. Növbəti yenilik isə Azərbaycanın məhsulu olan mobil notariat qovluğudur. Müvafiq proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır

və notariat fəaliyyəti ilə bağlı bütün məlumatların yüklənməsi təmin edilir. Həmçinin dövlətimizin başçısının cəza siyasətinin humanistləşdirilməsi barədə 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən, azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəli təşkili məqsədilə probasiya xidməti yaradılıb. Azadlığın məhdudlaşdırılması kimi yeni cəza növü müəyyənləşdirilib və elektron nəzarət vasitələrinin tətbiqinə başlanılıb. Qısa müddətdə bu cihazların ölkədə istehsalı təşkil olunub və bir il ərzində 1500 məhkuma elektron qolbaqlar tətbiq olunub. Bu yeniliklər qısa müddətdə tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa səbəb olub.

Fikrət Məmmədov deyib ki, ölkəmizdə həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən təqdir olunur. Ədliyyə Nazirliyinin müsbət təcrübəsi yayılır və Azərbaycan müxtəlif mükafatlara layiq görülür. Hakimliyə namizədlərin seçimi qaydası Avropa Şurası və Avropa İttifaqı tərəfindən tam şəffaflığına görə müsbət nümunə kimi digər dövlətlərə tövsiyə olunub. Ölkəmiz Avropa Şurası tərəfindən həyata keçirilən müsabiqədə "Məhkəmənin nəbzi: idarəetmədə inqilab" adlı layihə ilə iştirak edərək "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülüb.

Nazir diqqətə çatdırıb ki, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ictimai həyatın bütün sahələrində əhəmiyyətli nailiyyətlərə imza atılır, mühüm transmilli və regional layihələr uğurla həyata keçirilir. Dünya Bankının "Doing Business 2019" hesabatında ölkəmiz 32 pillə irəliləyərək 25-ci yerə yüksəlib və ən islahatçı 10 dövlət sırasına daxil olub. Bu gün ölkəmiz yeni inkişaf dövrünü yaşayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə vətəndaşların rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı sosialyönümlü mühüm tədbirlər həyata keçirilir.

Diqqətə çatdırılıb ki, dövlətimizin başçısının "Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı məhz ölkəmizdə həyata keçirilən hərtərəfli islahatların mühüm tərkib hissəsidir. Ədliyyə sisteminin inkişafının strateji prioritetlərini müəyyən etməklə bu sahədə ən aktual məsələlərin və problemlərin həllini nəzərdə tutan Fərman müstəsna əhəmiyyətə malik proqram xarakterli "yol xəritəsi"dir. Fərman iqtisadi artımda mühüm əhəmiyyət daşıyan sahibkarlığın inkişafı, məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi, məhkəmə fəaliyyətinə müdaxilələrin qarşısının alınması, icraatın səmərəliliyinin artırılması və süründürməçilik hallarının aradan qaldırılması, hakimlərin iş yükünün azaldılması və sair problemlərin həllində qarşıya mühüm vəzifələr qoyub.

"Xüsusilə bu vəzifələr sırasında Dünya Bankı ilə birgə işlədiyimiz "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin tam tətbiqi, ədliyyə və məhkəmə infrastrukturunun təkmilləşdirilməsi barədə aidiyyəti dövlət orqanları qarşısında konkret vəzifələr qoyulub. Fərmanla verilmiş tapşırıqların icrası çərçivəsində mühüm qanun layihələri paketi hazırlanaraq dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim edilib və artıq müzakirə olunub. Fərmanla qarşıda qoyulan məsələlərin aktuallığı və ictimai əhəmiyyəti nəzərə alınaraq onun icrasından irəli gələn məsələlər üzrə vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş ictimai müzakirələr keçirilir. Bugünkü forum da bu işə əlavə təkan verəcək. Əminəm ki, qarşımızda qoyulmuş vəzifələrin müasir çağırışlara uyğun həyata keçirilməsində etibarlı tərəfdaşımız olan Dünya Bankının dəstəyi xüsusi əhəmiyyət kəsb edəcək və Azərbaycan ədliyyəsinin inkişafına mühüm töhfə olacaq", - deyə Ədliyyə naziri Fikrət Məmmədov vurğulayıb.

Ali Məhkəmənin sədri Ramiz Rzayev Azərbaycanın davamlı tərəqqisi və inkişafı üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə reallaşdırılan islahatların məhkəmə-hüquq sahəsini də əhatə etdiyini bildirib. Qeyd edib ki, məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsinə dair Fərman məhkəmələrin inkişafında yeni mərhələnin başlanğıcı olub. Bu Fərmanın məqsədi cəmiyyətdə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması, və-

təndaşların məhkəmə fəaliyyətinə inamının gücləndirilməsidir. Eyni zamanda, Ali Məhkəmə vahid məhkəmə təcrübəsinin təkmilləşdirilmə-



si üzərində iş aparır. Məhkəmə fəaliyyətinə müdaxilənin qarşısını almaq üçün mexanizmlərin təkmilləşdirilməsi planlaşdırılır, hakimlərin sayının artırılması nəzərdə tutulur. Aparılan bu islahatlar Azərbaycanda ədalət mühakiməsinin inkişafına xidmət edəcək, vətəndaşların hüquqlarının məhkəmələr tərəfindən mükəmməl şəkildə qorunacağına mühüm töhfə verəcək.

Panel müzakirələrdə İqtisadiyyat nazirinin müavini Rüfət




Məmmədov bildirib ki, son illərdə Azərbaycanda iqtisadiyyatın inkişafı istiqamətində köklü islahatlar həyata keçirilir. Ölkəmizdə məhkəmələrin əlçatanlığı sahibkarlıq fəaliyyətini daha səmərəli edir. Bu, hər bir sahibkar üçün vacibdir. Çünki digər peşə mənsubları kimi sahibkarlar da məhkəmələrə müraciət edirlər.

Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə deyib ki, Ədliyyə Nazirliyi Azərbaycanda informasiya texnologiyalarının tətbiqi sahəsində ən qabaqcıl qurumlardan biridir. Ədliyyə sistemində tətbiq olunan müasir informasiya texnologiyaları hər bir qurum üçün vacibdir. Bu gün Azərbaycan ədliyyəsində ən müasir texnologiyalar tətbiq edilir. Azərbaycan ədliy-



yəsində ən müasir informasiya texnologiyalarının tətbiqi digər ölkələrin də diqqətindədir və müsbət qarşılanır.

Tədbirdə, həmçinin Ədliyyə nazirinin müavini, layihə rəhbəri Azər Cəfərov "Ədliyyə sahəsində Dünya Bankı ilə səmərəli əməkdaşlıq" mövzusunda çıxış edib. Layihənin əlaqələndiricisi, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının Prezidenti Ramin Qurbanov, Dünya Bankının "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsinin informasiya texnologiyaları üzrə baş məsləhətçisi Qoran Edström ədliyyə sektorunda vətəndaşlara xidmətlərin göstərilməsində birgə nailiyyətlər barədə təqdimatlarla çıxış ediblər. Təqdimatlarda "Elektron məh-



kəmə" informasiya sisteminin ayrı-ayrı komponentləri əyani nümayiş etdirilib. Məlumat verilib ki, bu sistem elektron sənəd dövriyyəsini, o cümlədən iddia ərizələrinin elektron qaydada verilməsini təmin edir, məhkəmə xərclərini onlayn ödəmək, baxılan işlər və çıxarılan qərarlar barədə məlumat əldə etmək imkanı verir, məhkəmə proseslərinin audio-video yazılışını aparır, video-konfrans vasitəsilə pro-



ses iştirakçılarının uzaqdan dindirilməsini təmin edir, həmçinin məhkəmə idarəçiliyi işini əhəmiyyətli dərəcədə asanlaşdırır.

# Dünya Bankı ilə ədliyyə sahəsində birgə layihələr dünyada modeldir

**Dünya Bankının təşkilatçılığı ilə Bakıda keçirilən "Azərbaycanda Ədliyyə sektorunun nailiyyətləri: keçmişə və gələcəyə baxış" mövzusunda foruma iştirak etmək üçün ölkəmizdə səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembonun başçılıq etdiyi nümayəndə heyəti ilə iyunun 4-də Ədliyyə naziri Fikrət Məmmədovun görüşü keçirilib.**



Azərbaycan və Dünya Bankı arasında səmərəli əməkdaşlığın vurğulandığı görüşdə forumun ədliyyə sahəsində birgə həyata keçirilən layihələr nəticəsində əldə olunan nailiyyətlərin geniş auditoriyaya, o cümlədən beynəlxalq aləmə təqdim olunmasında mühüm əhəmiyyəti qeyd olunub.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi üzrə aparılan islahatlarda Dünya Bankının dəstəyini vurğulayıb, dövlət başçısının ədliyyə və məhkəmə sisteminin inkişafında mühüm "yol xəritəsi" olan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanın icrasının əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açdığını və qarşıda duran vəzifələrin yerinə yetirilməsində, xüsusilə "Elektron məhkəmə" informasiya sisteminin tam tətbiqində Dünya Bankının iştirakının əhəmiyyətini qeyd edib.

Dünya Bankının Azərbaycanla əlaqələrinin çox uğurlu olduğunu söyləyən xanım M.Tembon ölkəmizin nümunəvi tərəqqisini qeyd edib, məhkəmə-hüquq islahatlarının davam etdirilməsində Azərbaycan Prezidentinin siyasi iradəsini vurğulayaraq birgə həyata keçirilən layihələr nəticəsində əldə olunan nailiyyətləri, o cümlədən ədalət mühakiməsinin səmərəliliyinin xeyli artmasını, elektron məhkəmənin tətbiqini alqışlayıb.

Qeyd edib ki, Bankın ədliyyə sahəsindəki layihələri dünyada model layihə kimi qiymətləndirilərək digər dövlətlər üçün nümunəyə çevrilib. Həmin layihələr aprel ayında Vaşinqtonda keçirilən təqdimat zamanı çox böyük təəssüratla qarşılanaraq Azərbaycan nailiyyətlərinin təqdirəlayiq olduğu vurğulanıb və ölkəmizin müsbət təcrübəsindən yararlanmaq üçün digər dövlətlər tərəfindən Dünya Bankına müraciətlər edilir.

Xanım M.Tembon Azərbaycanda fəaliyyət müddətinin başa çatdığını bildirərək Bankın yeni regional direktoru Sebastian Molenösü təqdim edib. Nazir M.Tembona səmərəli əməkdaşlığa görə minnətdarlığını ifadə edib, S.Molenösə uğurlu fəaliyyət arzulayıb.

S.Molenös birgə layihələrin uğurlu nəticələrinin şahidi olduğunu bildirərək Dünya Bankının məhkəmə-hüquq islahatlarına dəstək göstərməyə hazır olduğunu və səmərəli əlaqələrin bundan sonra da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Gəncədə məhkəmə-hüquq islahatlarına dair geniş ictimai müzakirə keçirilib






**Ölkəmizdə müstəqil məhkəmə sisteminin formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən məhkəmə-hüquq islahatları məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına, ədalət mühakiməsinin əlçatanlığına və vətəndaşların hüquqlarının etibarlı müdafiəsinə xidmət edir.**

Dövlət başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə rəvac verməklə ədliyyə və məhkəmə sistemin inkişafında yeni mərhələnin başlanğıcı olub. Bu sahədə mühüm "yol xəritəsi" olan Fərmanın icrası üzrə Ədliyyə Nazirliyi tərəfindən ardıcıl tədbirlər görülür. Bu mühüm sənədin müstəsna əhəmiyyəti və ondan irəli gələn məsələlərlə bağlı vətəndaş cəmiyyəti institutları, müxtəlif biznes dairələri, sahibkarlar və ictimaiyyətin digər nümayəndələri ilə paytaxtda və bölgələrdə ictimai müzakirələr davam etdirilir.

Həyata keçirilən bu tədbirlər çərçivəsində Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə iyunun 14-də Gəncə şəhəri Heydər Əliyev Mərkəzində "Vətəndaşların və sahibkarların hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 03.04.2019-cu il tarixli Fərmanının əhəmiyyəti" mövzusunda geniş ictimai müzakirə keçirilib.

15 iyun - Milli Qurtuluş Günü ərəfəsində keçirilən tədbirdən öncə ulu öndər Heydər Əliyevin Gəncə şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib, Heydər Əliyev Mərkəzində dahi öndərin həyat və fəaliyyətindən bəhs edən zəngin ekspozisiyalarla tanışlıq olub.

Tədbirdə Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Ədliyyə və İqtisadiyyat nazirliklərinin, Məhkəmə-Hüquq Şurasının məsul şəxsləri, Gəncə apelyasiya, regional, şəhər və ətraf rayon məhkəmələrinin sədrləri, hakimlər, prokuror və vəkillər, Gəncə və Şəmkir regional və yerli ədliyyə qurumlarının, habelə şəhər ali təhsil müəssisələrinin rəhbərləri, çoxsaylı sahibkarlar, vətəndaş cəmiyyətinin və KİV nümayəndələri iştirak ediblər.

Tədbiri açan Ədliyyə naziri Fikrət Məmmədov 1993-cü ilin iyunun 15-də ölkə rəhbərliyinə qayıdan ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xilaskarlıq missiyasından, milli dövlət-

çiliyimizin möhkəmləndirilməsi, ölkəmizin rifahı və gələcəyi naminə misilsiz xidmətlərindən bəhs edib, Ulu Öndərin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyasının dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsini, ölkəmizin sürətli tərəqqisinin təmin olunduğunu və bütün sahələrdə yüksək nailiyyətlərini vurğulayıb.

Bildirib ki, ölkədə aparılan genişmiqyaslı islahatlar məhkəmə-hüquq sistemini də əhatə edib, ötən dövrdə bu sahədə bir çox mühüm tədbirlər görülüb. Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ədliyyə və məhkəmə sistemində islahatların yeni mərhələdə müasir çağırışlara uyğun həyata keçirilməsinə təkan verib.

Nazir bu mühüm sənədin icrası, o cümlədən sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsi üzrə görülən işləri qeyd edib, qanunvericilik, institusional və praktiki tədbirlərdən danışıb.

Diqqətə çatdırıb ki, Fərmana uyğun olaraq qısa müddətdə məhkəmə fəaliyyəti, o cümlədən sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırması, sahibkarlıqla bağlı mübahisələrə dair işlər üzrə yeni ixtisaslaşmış məhkəmənin yaradılması ilə bağlı mühüm qanun layihələri paketi hazırlanaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunub və artıq ötən gün həmin layihələrə Parlamentin plenar iclasında ilk oxunuşda baxılıb.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı ölkə Prezidentinin məhkəmə-hüquq sisteminə daim qayğı ilə yanaşdığını, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edildiyini bildirib, Fərmanın məhkəmə sisteminin inkişafında inqilabi addım olduğunu vurğulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının Gəncə-Qazax nümayəndəliyinin müdiri Afina Babayeva çıxış edərək sahibkarların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılmasında və bu sahədə mübahisələrə dair işlərə daha səmərəli və çevik baxılmasının təmin olunmasında Fərmanın müstəsna rolunu vurğulayıb.

Tədbirdə həmçinin, nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov, İcra baş idarəsinin rəisi - baş icra məmuru Nurəddin Mustafayev, İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə, "Elektron məhkəmə" informasiya sistemi üzrə İşçi Qrupun üzvü Rəşad Əliyev tərəfindən dövlət başçısının Fərmanının məhkəmələrə əlçatanlığın və müraciət imkanlarının yaxşılaşdırılmasında rolu, sahibkarların hüquqlarının müdafiəsində məhkəmə təminatının vacibliyi, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması barədə çıxışlar edilib, məhkəmə fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılmasında "Elektron məhkəmə", "Elektron icra" informasiya sistemlərinin əhəmiyyəti və islahatların dərinləşdirilməsində innovasiyaların rolu barədə əyani təqdimatlar edilib.

Sonra iştirakçılarla sual-cavab sessiyası keçirilərək, müzakirələr aparılıb. Çıxış edən sahibkarlar, vətəndaş cəmiyyətinin və ictimaiyyətin digər nümayəndələri dövlət başçısının fərmanının vətəndaşların, o cümlədən sahibkarların hüquqlarının etibarlı müdafiəsinə xidmət etdiyini vurğulayıb, məhkəmələrin ixtisaslaşması, mediasiyanın tətbiqi, notariat, vəkillik və könüllülük fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb, təkliflər irəli sürüblər.

Tədbiri Ədliyyə naziri Fikrət Məmmədov yekunlaşdıraraq məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsi olan ölkə Prezidentinin Fərmanının icrası nəticəsində müasir tələblərə cavab verən və cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşmasına, onun keyfiyyətinin və səmərəliliyinin artırılmasına, əlçatanlığın asanlaşdırılmasına, yüksək vətəndaş məmnunluğuna, sahibkarlığın inkişafının sürətlənməsinə nail olunacağını vurğulayıb.

# Ədliyyə naziri və nazir müavinləri bölgələrdə vətəndaşları qəbul ediblər

**Ölkə Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Dövlət başçısının tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq iyunun 14-də Ədliyyə naziri Fikrət Məmmədov Gəncə regional ədliyyə idarəsində vətəndaşları qəbul edib.

Eyni zamanda, Ədliyyə nazirinin müavini Vilayət Zahirov iyunun 12-də Samuxda, Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov isə iyunun 13-də Göygöl rayonunda vətəndaşları qəbul ediblər.

Qəbullar zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.



Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Ədliyyə naziri Gəncəyə səfəri çərçivəsində, həmçinin ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

Müşavirədə ədliyyə və məhkəmə fəaliyyətinin dövlət başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verilib.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini qeyd edərək bu mühüm sənədin ədliyyə və məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün "yol xəritəsi" olduğunu, bu sahədə islahatların yeni inkişaf mərhələsinə keçdiyini vurğulayıb, kompleks qanunvericilik, institusional və praktiki tədbirlər nəzərdə tutan proqram xarakterli Fərmandan irəli gələn vəzifələrin vaxtında, dürüst və dönmədən icrasının təmin olunmasını diqqətə çatdırıb.

# Ədliyyə fəaliyyəti dövlət başçısının tapşırıqlarına uyğun təkmilləşir

**İyunun 28-də Ədliyyə Nazirliyinin əsas fəaliyyət istiqamətləri üzrə cari ildə görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş kollegiya iclası keçirilib.**

Kollegiyada çıxış edən Ədliyyə naziri Fikrət Məmmədov ümummilli lider Heydər Əliyevin dövlət inkişafı kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli tərəqqisini, vətən-




daşların rifahının yüksəldilməsinə xidmət edən sosialyönümlü mühüm qərarların qəbul olunduğunu, dövlət idarəçiliyinin təkmilləşdirilməsi üzrə önəmli addımların atıldığını vurğulayıb. Qeyd olunub ki, ölkənin hərtərəfli inkişafına uyğun olaraq ədliyyə və məhkəmə sistemi də islahatlar aparılmaqla müasirləşir.

İclasda dövlət başçısının tapşırıqlarına uyğun olaraq ədliyyə fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülmüş işlər əyani təqdimatla nümayiş etdirilməklə ətraflı təhlil edilib.

Məlumat verilib ki, ölkədə iqtisadi inkişafa, əhalinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn qanunyaradıcı fəaliyyətdə nazirlik tərəfindən yaxından iştirak edilərək cari ildə hazırlanmış normativ akt layihələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 50% artaraq 800-ə çatıb, 1.300-dək belə akt ekspertizadan keçirilib, 1.600-dək sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib.

Ədliyyə Nazirliyi tərəfindən aparılan vətəndaşların daha çox bəhrələndiyi qanunvericiliyin elektron resurslarına (huquqiaktlar.gov.az və e-qanun.az) edilən başçəkmələrin sayı 40 faiz artaraq 900 minə çatıb. Həmin elektron bazalara əlçatanlığın asanlaşdırılması, onların funksionallığının artırılması üzrə əməli işlər görülür.



Notariat fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bu sahədə yeni qanunvericiliyin implementasiyası çərçivəsində Notariat Palatasının yaradılması, notariat ofislərinin fəaliyyətinin təşkili ilə bağlı zəruri tədbirlər görülüb, qanunvericilikdəki dəyişikliklərlə əlaqədar hazırlanaraq təqdim olunmuş bir sıra yeni qanun layihələri paketi Parlamentdə ilk oxunuşdan keçib.

Yeni Qanuna əsasən elektron ədliyyə köşkü, səyyar notariat çantası və mobil notariat qovluğu hazırlanıb. Azərbaycan istehsalı olan bu innovasiyalar vətəndaşlara istənilən yerdə notariat hərəkətlərinin aparılmasına, təxirə salınmayan hallarda səyyar və məsafədən xidmətlərin göstərilməsinə, elektron notariat kabinetinə sahib olmaqla notariat fəaliyyəti barədə məlumatların əldə edilməsinə imkan verir. Artıq hava limanında quraşdırılaraq üç aydır ki, istifadəyə verilmiş elektron ədliyyə köşkünə yüzlərlə müraciət edilib və vətəndaşlar

ədliyyə xidmətlərindən dərhal faydalanıblar. "Mobil notariat" proqram təminatından isə 2.500 şəxs istifadə edib. Bu yeniliklər qısa müddətdə tətbiq edilməsinə baxmayaraq, artıq beynəlxalq marağa da səbəb olub.

İclasda innovasiyalara dair nazirliyin internet informasiya resursunda "İnnovativ ədliyyə" bölməsi yaradılmaqla bu barədə əhalinin dolğun məlumatlandırılmasının və istifadəçi auditoriyasının genişləndirilməsinin vacibliyi vurğulanıb, innovativ texnologiyaların imkanlarından ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası işində istifadəsi ilə bağlı tapşırıqlar verilib, bu məqsədlə hazırlanmış ictimai işlərin yerinə yetirilməsi vəziyyətinin izlənilməsinə və cəza çəkməkdən yayınma hallarının dərhal aşkar olunmasına xidmət edən xüsusi monitorinq qurğusu nümayiş etdirilib.

Eyni zamanda, vətəndaşlara göstərilən elektron ədliyyə xidmətləri təhlil olunub, 2019-cu ildə nazirliyin 30-dan çox e-xidmətindən istifadənin sayının 1.7 milyona çatdığı, Azərbaycan adları, fərdi identifikasiya nömrəsi, borclunun ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə bağlı məlumatların verilməsi barədə e-xidmətlərinə daha çox müraciət olunduğu bildirilib, vətəndaşlar üçün daha aktual və tələbli olan yeni növ xidmətlərin tətbiqi müzakirə olunaraq, icra işləri, bələdiyyə və ekspertiza fəaliyyəti ilə bağlı daha 4 növ e-xidmətin istifadəyə verilməsi qərara alınıb.

2019-cu ildə ədliyyə və məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə ardıcıl işlərin dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel tarixli Fərmanı ilə yeni mərhələyə keçdiyi xüsusi vurğulanaraq proqram xarakterli "yol xəritəsi" olan bu mühüm sənədin icrası üzrə həyata keçirilən qanunvericilik, institusional və praktiki tədbirlər qeyd olunub.

Bildirilib ki, Fərmandan irəli gələn məsələlərə, o cümlədən sahibkarların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsinə, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqinə dair vətəndaş cəmiyyəti və KİV nümayəndələrinin iştirakı ilə geniş ictimai müzakirələr keçirilib, mütərəqqi beynəlxalq təcrübələr öyrənilib, birgə işçi qrup tərəfindən qısa müddətdə 30-dan çox normativ aktların layihələri hazırlanıb. Sahibkarlıqla bağlı mübahisələr üzrə ixtisaslaşdırılmış məhkəmənin yaradılması, hakimlərin sosial müdafiəsinin və məhkəmə təminatının yaxşılaşdırılması ilə bağlı dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş yeni qanun layihələri paketi artıq bu ərəfədə müzakirə olunub.

Həmçinin qeyd edilib ki, ölkə Prezidentinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı tapşırıqlarına əsasən cinayət qanunvericiliyinə edilmiş əsaslı dəyişikliklərə uyğun olaraq bir sıra əməllərin dekriminallaşdırılması ilə ötən il 5.000-ə yaxın məhkum cəzadan tamamilə azad olunub və ya cəzası yüngülləşdirilib.

Bununla yanaşı, dövlət başçısının humanistliyinin növbəti təzahürü olaraq Fərmanda həmin tədbirlərin davam etdirilməsi tapşırılıb. Bununla əlaqədar Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluq tərəfindən qabaqcıl beynəlxalq təcrübə öyrənilib, Cinayət, Cinayət-Prosessual, İnzibati Xətalar və Cəzaların İcrası məcəllələrinə bütövlükdə 400-ə yaxın dəyişikliklərin edilməsi ilə bir çox əməllərin dekriminallaşdırılması, o cümlədən alternativ cəzalardan daha geniş istifadə olunması və yeni mütərəqqi hüquq institutlarının tətbiqi məsələləri ilə bağlı qanun layihələri hazırlanıb və iclasda onlara baxılaraq bəyənilib.

Kollegiyada Fərmanın icrası üzrə nazirliyin üzərinə düşən vəzifələrin vaxtında və dürüst yerinə yetirilməsi ilə bağlı əlavə tapşırıqlar verilib.

Bununla yanaşı, bələdiyyə institutunun yaradılmasının 20 illiyi ilə əlaqədar cari ildə nazirlik tərəfindən bələdiyyələrə metodiki köməkliyin göstərilməsi, onların fəaliyyətinə inzibati nəzarətin səmərəliliyinin artırılması ilə bağlı görülən işlər qeyd olunub, 38 minədək bələdiyyə aktının inzibati nəzarət qaydasında yoxlanılaraq onlardan 900-dək aktın nazirliyin təklifləri əsasında ləğv edildiyi və ya dəyişdirildiyi, pozuntulara yol verən 65 bələdiyyə sədri barədə inzibati xəta haqqında protokolların məhkəmələrə, cinayət xarakterli 16 fakt üzrə materialların

isə prokurorluğa göndərildiyi bildirilib. Görülmüş tədbirlər nəticəsində qanunsuz ayrılmış 2.800 ha torpaq sahəsi geri qaytarılıb.

İclasda həmçinin, qarşıda duran vəzifələr müzakirə edilib, ədliyyə işçiləri tərəfindən etik davranış qaydalarına dönmədən əməl olunması, yol verilən xarakterik nöqsanların səbəb və şəraitinin aradan qaldırılması, vətəndaşlara layiqli xidmətlər göstərməklə məmnunluğun təmin edilməsi ilə bağlı tapşırıqlar verilib.

Eyni zamanda, ədliyyə fəaliyyətinin istiqamətləri üzrə əsas prioritetlər, o cümlədən ədliyyənin inkişafına dair 2019-2023-cü illər üzrə Dövlət Proqramının icrası, məhkəmə qərarlarının icrası işinin yaxşılaşdırılması, o cümlədən "Elektron icra" informasiya sisteminin tam tətbiqi, penitensiar və istintaq sahəsində fəaliyyətin təkmilləşdirilməsi, beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi ilə bağlı və digər konkret tədbirlər müəyyən edilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ akt layihələrinə baxılıb, təcrübədən irəli gələn struktur dəyişiklikləri ilə bağlı qərar qəbul olunub, vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan 20-dək qeyri-hökumət təşkilatı dövlət qeydiyyatına alınıb.

# Ombudsmanların XVI Beynəlxalq Konfransı



**Bakıda "Ədalətli sülh və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında ombudsmanların rolu" mövzusunda Ombudsmanların XVI Bakı Beynəlxalq Konfransı keçirilib.**

18 iyun - Azərbaycanda Milli İnsan Hüquqları Gününə təsadüf edən konfransı İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova açaraq Azərbaycan dövlətinin vətəndaşlarının sosial rifahının yaxşılaşdırılması üçün bütün imkanlarını səfərbər etdiyini bildirib, insan hüquqlarının təmin olunmasında ombudsmanın rolundan bəhs edib.

Baş Nazirin müavini Əli Əhmədov insan hüquqlarının müasir cəmiyyətin ən ali dəyərlərindən olduğunu bildirərək sülh və dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında ombudsmanların böyük rolunu vurğulayıb, Dayanıqlı İnkişaf Məqsədləri barədə danışıb. Qeyd edib ki, bu proqramın ən əsas qayələrindən biri sülhün təmin edilməsidir. Etibarlı sülh olmadan dayanıqlı inkişaf, dayanıqlı inkişaf olmadan sülh olmur. Azərbaycan xalqı sülhsevər cəmiyyət olmasına baxmayaraq, 30 ilə yaxındır ki, işğala məruz qalıb. Torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal olunub, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Milli Məclisin Sədr müavini Bahar Muradova Azərbaycanın insan hüquqları məsələlərinin müzakirə olunduğu və uğurlu nəticələrin əldə edildiyi məkan olduğunu deyib. Bildirib ki, Azərbaycan dövləti multikulturalizmi, həmrəyliyi vətəndaşlarımızın həyat tərzi kimi görür. Azərbaycan bu istiqamətdə daim dünya ölkələrini bir araya gətirir. Azər-

baycan dünyaya sülh mesajı verən ölkə kimi də tanınır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai Dayanıqlı İnkişaf Məqsədləri barədə danışıb. Bildirib ki, insan hüquqları məsələsi bu proqramın əsas qayələrindən birini təşkil edir. Ombudsmanlar insan hüquqlarının qorunmasında əhəmiyyətli rol oynayır. İnklüziv cəmiyyətin yaradılmasında ombudsmanların rolu böyükdür. Azərbaycan Dayanıqlı İnkişaf Məqsədlərinə sadiq dövlətdir.

Konfransda həmçinin, digər çıxışlar edilib, plenar iclas çərçivəsində müxtəlif aktual mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

Tədbirdə Ədliyyə nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üzvü Toğrul Musayev və nazirliyin digər məsul əməkdaşları iştirak ediblər.

# Azərbaycanın 2019-cu il üzrə Aİ Biznes Mühiti Hesabatı təqdim olunub

**Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən və Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən nəşr olunan Azərbaycanın 2019-cu il üzrə Aİ Biznes Mühiti Hesabatı təqdim edilib.**

Hesabat iyunun 13-də Bakıda keçirilən V Azərbaycan-Avropa İttifaqı biznes forumunda təqdim olunub.

Forumda Azərbaycanda son iqtisadi yeniliklər, imkanlar və çətinliklər müzakirə edilib. Həmçinin mövcud iqtisadi vəziyyətlə yanaşı, ölkədəki biznes və investisiya mühiti barədə Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirlərini əks etdirən illik biznes mühiti hesabatının nəticələrinə əsaslanan hesabatın əsas məqamları təqdim olunub. Tədqiqat vergi və gömrük sistemində, eləcə də təhsil, maliyyə və məhkəmə-hüquq sahələrində islahatların dərinləşdirilməsinin əhəmiyyətini vurğulayır. Bundan başqa, hesabat sahibkarlar arasında məlumatlılıq səviyyəsini artırmaq və Strateji Yol xəritələrinin uğurlu şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə dövlət-özəl sektor dialoqunun gücləndirilməsinin vacibliyini vurğulayır.




Vergilər naziri Mikayıl Cabbarov, Dövlət Gömrük Komitəsinin sədrinin müavini İsmayıl Hüseynov, Ədliyyə nazirinin müavini Toğrul Musayev və Təhsil nazirinin müavini İdris İsayev tədqiqata dair müzakirələrdə iştirak edib və hesabatın nəticələri ilə bağlı öz dəyərli fikirlərini bölüşüblər.

Onlar öz sektorlarında aparılan islahatlar barədə ətraflı məlumat verib və dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsini dəstəklədiklərini bildiriblər.



# Ədliyyə nazirinin müavini Toğrul Musayevin Avropa İttifaqı Biznes Mühiti Hesabatının təqdimatında çıxışı




*Hörmətli həmkarlar,*
*Xanımlar və cənablar,*

İlk növbədə bu mötəbər Forumun bütün iştirakçılarını salamlayıram və tədbirə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycanda biznes mühitinə həsr olunmuş Avropa İttifaqının hesabatı üzrə aparılacaq panel müzakirələr bu sahədə səmərəliliyin artırılmasına təkan verəcəkdir.

*Hörmətli tədbir iştirakçıları,*

Təbiidir ki, investorlar müstəqil və səmərəli məhkəmə sistemləri olan ölkələrə sərmayə qoyulmasını üstün tuturlar, çünki müstəqil məhkəmələr onların hüquqlarını daha etibarlı müdafiə etməyə real imkan yaradır, hüquqi qeyri-müəyyənliyi azaldır.

Avropa İttifaqının hesabatında da göstərilir ki, etibarlı və əlçatan məhkəmə sisteminin mövculuğu olduqca vacibdir. Bununla bağlı bildirmək istərdim ki, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericiliyə demək olar ki, hər il mütərəqqi əlavə və dəyişikliklər edilir.

Ölkəmizdə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Xüsusi Komissiya tərəfindən mövcud təcrübə və qanunvericilik qeyd edilən məqsədlər baxımından təhlil olunmuş və nəticədə məhkəməyə çıxışı asanlaşdırmaq məqsədilə qanunlara hələ ötən ilin sonunda dəyişikliklər edilərək sahibkarlıq fəaliyyətinə aid olan iqtisadi mübahisələr üzrə məhkəmə icraatının elektron qaydada aparılması mümkün olmuşdur.

Bundan başqa əhəmiyyətli dəyişikliklərdən biri də məhkəmənin hazırlıq iclasının və məhkəmə baxışının təyin olunması müddətləri, habelə işə baxılmasının təxirə salınmasının maksimal həddinin müəyyən edilməsi ilə əlaqədardır.

Avropa İttifaqının hesabatında məhkəmələrin səmərəliliyinin artırılması və İKT-lərin daha geniş tətbiqinin vacibliyi də göstərilir. Vurğulamalıyam ki, artıq altıncı aydır ki, iqtisadi mübahisələr üzrə icraat yalnız "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə həyata keçirilir. Bu müddət ərzində elektron formatda mindən çox iqtisadi xarakterli iddialar daxil olmuşdur.

Hesabatda ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı və onun icrası üzrə gözlənilən nəticələr xüsusi qeyd olunur. Həqiqətən də məhkəmə islahatlarında müstəsna əhəmiyyətə malik proqram xarakterli "yol xəritəsi" olan bu mühüm sənəd biznes mühitinin yaxşılaşdırılması üçün də maraq kəsb edən bir çox əlavə mühüm tədbirləri müəyyən etmişdir. Fərmanla "Elektron məhkəmə" informasiya sisteminin tam tətbiqi ilə bağlı qarşımızda konkret vəzifələr qoyulmuşdur.

Fərmanın mahiyyətini və islahatların gələcək prioritetlərini biznes dairələri və diplomatik korpusun nümayəndələrinə çatdırmaq üçün Sahibkarlar Konfederasiyası, Amerika Ticarət Palatası və Dünya Bankı ilə birgə geniş ictimai müzakirələr və Forumlar təşkil olunmuşdur.

Qeyd etmək istərdim ki, Fərmana uyğun olaraq sahibkarların məhkəməyə müraciət imkanlarını asanlaşdırmaq, onların hüquqlarının etibarlı və səmərəli məhkəmə tə-

minatına nail olmaq məqsədilə sahibkarlıqla bağlı mübahisələrə dair işlər üzrə yeni ixtisaslaşmış məhkəmənin yaradılması nəzərdə tutulur. Bu məhkəmələrə ən bilikli və təcrübəli hakimlərin təyin olunması isə, şübhəsiz ki, ədalət mühakiməsinin keyfiyyətinə böyük təsir göstərəcəkdir.

Qısa müddət ərzində məhkəmə fəaliyyəti, o cümlədən kommersiya məhkəmələrinin yaradılması ilə bağlı mühüm qanun layihələri paketi hazırlanaraq dövlət başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim edilmiş və artıq elə bu gün həmin qanun layihələrinin Parlamentdə birinci oxunuşda müzakirəsi nəzərdə tutulur.

Həmçinin Fərmanda iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə ekspertizasının keçirilməsi və ekspert rəyinin verilməsi müddətlərinin dəqiqləşdirilməsi nəzərdə tutulub ki, bu da öz növbəsində ekspertiza təyin edilmiş işlərə daha operativ baxılmasını təmin edəcəkdir.

Eyni zamanda, məhkəmələrə əlçatanlığı çətinləşdirə bilən bir amilə də toxunmaq istərdim. Söhbət hakimlərin sayından gedir. Qeyd etməliyəm ki, hələ 2006-cı ildə onların sayı iki dəfə artırılaraq 600-ə çatdırılmışdır. Bununla belə, bu gün Azərbaycanda 100 min nəfərə düşən hakimlərin sayı 6 olmaqla, Avropa ölkələri üzrə orta göstəricidən üç dəfə azdır. Məhz buna görə də Fərmanla hakimlərin sayının xeyli - 200 nəfər artırılması müstəsna əhəmiyyətə malikdir və bu addım məhkəmə fəaliyyətinin daha optimal şəkildə qurulması üçün çox vacibdir.

Təqdim olunmuş hesabatda, həmçinin məhkəmə qərarlarının ədalətli icrasının vacibliyinə də toxunulur. Qeyd etməliyəm ki, son illər ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında xüsusi əhəmiyyət kəsb edən icra işinin təkmilləşdirilməsinə dair qanunvericilik və institusional tədbirlər görülmüş, təsirli icra mexanizmləri yaradılmışdır.

Bununla yanaşı, 3 aprel tarixli Fərmana əsasən məhkəmə qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin edilməsi, Elektron icra sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol vermələrinin qarşısının alınması üzrə tədbirlər görülür. Bildirirəm ki, alternativ özəl icra sisteminin yaradılması ilə bağlı ən yaxşı təcrübənin öyrənilməsi üçün artıq Avropa İttifaqının bir sıra üzv dövlətlərinə tanışlıq səfərləri edilmişdir. Güman edirəm ki, bu tədbirlərin həyata keçirilməsi icra sisteminin sahibkarlara münasibətdə də səmərəliliyinin artırılmasına xidmət edəcəkdir.

Təqdim olunmuş hesabatda həmçinin, məhkəmə sisteminə inamın artırılması üçün hakimlər və vəkillər üçün təlimlərin keçirilməsinin zəruriliyi qeyd olunur. Şübhəsiz, bu olduqca vacib məsələdir. Bununla bağlı məlumat vermək istərdim ki, təkcə ötən ildə və bu ilin beş ayında müxtəlif mövzular, o cümlədən biznes mühitinə bilavasitə aidiyyəti olan iqtisadi mübahisələrlə bağlı hakimlərin və vəkillərin iştirakı ilə 100-dən çox təlimlər keçirilmişdir.

Sahibkarların hüquqlarının müdafiəsi sahəsində əlavə mexanizmlər də ölkəmizdə tətbiq olunmaqdadır. Bu sahədə "Mediasiya haqqında" Qanunun qəbul edilməsi xüsusi qeyd olunmalıdır. Eyni zamanda, Fərmana uyğun olaraq xarici dövlətlərin qabaqcıl təcrübəsi nəzərə alınmaqla ölkəmizdə səmərəli beynəlxalq arbitraj prosedurlarının təşviqinə dair təkliflərin hazırlanması tapşırılmışdır.

Həmçinin Prezident yanında, habelə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında sahibkarların müraciətlərinə baxılması məqsədilə yaradılmış Apellyasiya Şuraları artıq 3 ildir ki, səmərəli fəaliyyət göstərirlər. Bu tədbirlərin məntiqi davamı kimi ölkə Prezidentinin 6 may 2019-cu il tarixli Fərmanına uyğun olaraq dövlətə məxsus olan hüquqi şəxslərdə də Apellyasiya Şuraları yaradılmışdır.

*Hörmətli Forum iştirakçıları,*

Sözsüz ki, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları sadaladığım tədbirlərlə məhdudlaşmır və inanıram ki, görülən işlər sahibkarların səmərəli məhkəmə sisteminə əlçatanlığını xeyli asanlaşdıracaq, bununla da biznes mühitinin daha da inkişaf etdirilməsinə dəyərli töhfələr veriləcəkdir.

*Diqqətinizə görə minnətdaram.*

# Azərbaycan-İsveçrə Birgə Komissiyasının növbəti iclası keçirilib



**Berndə Azərbaycan Respublikası Hökuməti və İsveçrə Konfederasiyası Federal Şurası arasında Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın 8-ci iclası keçirilib.**

Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayevin və İsveçrə Konfederasiyasının Federal Şurasının ticarət sazişləri üzrə nümayəndəsi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin İkitərəfli İqtisadi Əlaqələr İdarəsinin rəhbəri Ervin Bolingerin həmsədrlik etdiyi Birgə komissiyanın iclasında hər iki ölkənin komissiyada təmsil olunan qurumlarının rəsmiləri və özəl sektorun təmsilçiləri iştirak edib.

Tədbirdə Azərbaycanda həyata keçirilən məqsədyönlü, qlobal çağırışlara cavab verən siyasət nəticəsində yaradılmış siyasi-iqtisadi və maliyyə sabitliyi, ölkəmizin böyük tranzit potensialı, həyata keçirilən iri regional layihələri, əlverişli biznes və investisiya mühitinin daha da inkişaf etdirilməsinə xidmət edən məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi üzrə aparılan kompleks tədbirlər vurğulanıb, iqtisadi göstəricilər diqqətə çatdırılıb, respublikamızın qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı qeyd olunub.

Komissiyanın iclasında Azərbaycanın nəqliyyat-tranzit imkanları barədə məlumat verilib, ölkəmizin ərazisindən keçən "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin yükdaşımalar üçün məsafə və müddət baxımından olduqca əlverişli olduğu diqqətə çatdırılıb.

İclasda müxtəlif sahələrdə əməkdaşlığın inkişafı perspektivləri barədə müzakirələr aparılıb, iqtisadi-ticarət əlaqələrinin, investisiya, turizm, təhsil, İKT, kiçik və orta biznes üzrə əməkdaşlığın genişləndirilməsi imkanları, bir sıra məhsulların, o cümlədən fındıq ixracının artırılması üçün böyük potensialın olduğu bildirilib.

Ervin Bolinger ölkəsinin Azərbaycanla əlaqələrinin yüksək səviyyədə olduğunu, İsveçrə şirkətlərinin Azərbaycanda aparılan islahatları müsbət qiymətləndirdiklərini və İsveçrə iş adamlarının Azərbaycanda uğurlu fəaliyyətini qeyd edib, Azərbaycanda əlverişli biznes mühitinin yaradıldığını vurğulayıb. Ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib, əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. E.Bolinger İsveçrə iqtisadiyyatı barədə məlumat verib, Azərbaycan-İsveçrə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində və yeni əməkdaşlıq imkanlarının təşviq olunmasında komissiyanın rolunu vurğulayıb.

Sonda iclasın yekunlarına dair Protokol imzalanıb. Sənəddə iqtisadi-ticarət, enerji, sənaye, İKT, təhsil, kənd təsərrüfatı, turizm və sair sahələrdə əməkdaşlığın, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsi nəzərdə tutulur.

Tədbirdə Komissiyanın üzvü, Ədliyyə nazirinin müavini Toğrul Musayev iştirak edib.

# Azərbaycanın məhkəmə-hüquq sahəsində islahatları təqdir olunur

**İyunun 11-12-də Türkiyənin paytaxtı Ankara şəhərində Avropa və Mərkəzi Asiya hökumətləri üçün dövlət idarəçiliyi ilə bağlı "Səmərəli, hesabatlı və inklüziv institutların yaradılması" mövzusunda regional konfrans keçirilib.**

Avropa və Mərkəzi Asiya, o cümlədən Avropa İttifaqının üzv dövlətlərindən 450-yə yaxın nümayəndənin - yüksək səviyyəli hökumət rəsmilərinin, beynəlxalq inkişaf tərəfdaşlarının, akademik sahənin, özəl sektorun və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirak etdiyi konfransda Azərbaycanı Ədliyyə nazirinin müavini Azər Cəfərov təmsil edib.

Plenar müşavirə, panel diskussiyalar, təqdimatlar, dəyirmi masa və seksiya iclasları şəklində keçirilən konfransda dövlət resurslarının idarə olunması, dövlət xidmətlərinin göstərilməsi, sahibkarlarla əməkdaşlığın və iqtisadi idarə etmənin gücləndirilməsi, elektron hökumətin perspektivləri və digər bu kimi aktual mövzular müzakirə olunub.

Tədbirdə Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Siril Müller, Türkiyə Respublikasının vitse-prezidenti Yılmaz Tuna və Maliyyə və Xəzinədarlıq nazirinin müavini Osman Dinçbaş giriş nitqi ilə çıxış ediblər.



S.Müller son illər Avropa və Asiya ölkələrinin idarəçiliyin gücləndirilməsi sahəsində əldə etdikləri nailiyyətlərdən danışarkən, Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatlarına xüsusi yer ayırıb, bəzi kateqoriya işlərə avtomatlaşdırılmış rejimdə baxılma sisteminin tətbiq edilməsinin əhəmiyyətini qeyd edərək, bunu həm də hakimlərə mürəkkəb işlər üçün daha çox vaxt ayırmağa imkan verən təqdirəlayiq hal kimi qiymətləndirib.

Konfransda ölkəmizlə bağlı üç mövzu üzrə, o cümlədən ədalət mühakiməsinin islahatı və bu sahədə göstərilən xidmətlərin yaxşılaşdırılması, monitorinq və qiymətləndirmə prosesi, neftçıxarma sahəsinin şəffaflığının yüksəldilməsi təcrübəsi barədə təqdimatlar keçirilib.

Aidiyyəti təqdimatda dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, məhkəmələrə əlçatanlığın artırılması, xüsusilə yeni məhkəmə infrastrukturunun və elektron məhkəmənin yaradılması üzrə görülən genişmiqyaslı işlər, bu sahədə qanunvericilikdəki mütərəqqi dəyişikliklər nümayiş etdirilib, ölkə Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı və "Mediasiya haqqında" Qanun barədə məlumat böyük maraqla qarşılanıb.

Təqdimatlardan sonra tədbir iştirakçılarının çoxsaylı sualları ətraflı cavablandırılıb. Müzakirələr zamanı Dünya Bankının rəsmiləri konfrans iştirakçılarına nümayiş etdirilən yenilikləri Azərbaycana səfər edərkən yerində müşahidə etdiklərini bildiriblər.

Tədbir çərçivəsində Dünya Bankının Cənubi Qafqaz ölkələri üzrə regional ofisinin rəhbəri Sebastian Molineus, Türkiyə Ədliyyə nazirinin müavini Selahaddin Menteş, Gürcüstan, Qazaxıstan, Albaniya və İtaliyanın nümayəndə heyətləri ilə fikir və təcrübə mübadiləsi aparılıb.

# Tacikistan Azərbaycanın ədliyyə sahəsində innovasiyalara maraq göstərir

**Ölkə Prezidenti cənab İlham Əliyev rəhbərliyi ilə ədliyyə və məhkəmə sistemində müasir çağırışlara uyğun məqsədyönlü islahatlar aparılaraq vətəndaşlara şəffaf, operativ və əlçatan xidmətlərin göstərilməsi məqsədilə elektron innovasiyalar tətbiq olunur. Bu sahədə yeniliklər beynəlxalq maraq doğuraraq digər dövlətlərin də diqqətini cəlb edir, Azərbaycanın əldə etdiyi nailiyyətlərdən bəhrələnilir.**



Tacikistan ədliyyə nazirinin iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair imzalanmış Sazişin implementasiyası çərçivəsində ədliyyə sahəsindəki müsbət təcrübəmizi öyrənməklə bağlı müraciətinə əsasən Tacikistanın Prezident Aparatı və Ədliyyə Nazirliyinin nümayəndə heyəti iyunun 24-28-də respublikamızda səfərdə olub.

Səfər zamanı Tacikistan nümayəndə heyəti nazirliyin ayrı-ayrı istiqamətləri, o cümlədən qanunyaradıcı fəaliyyəti, beynəlxalq hüquqi əlaqələri, elektron ədliyyə xidmətləri və müxtəlif reyestrləri ilə tanış olub, tətbiq olunan innovasiyalara və rəqəmsal texnologiyalara dair təqdimatlar keçirilib.

Notariat hərəkətlərinin asan və çevik aparılması, məsafədən xidmətlərin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası, dünya təcrübəsində rast gəlinməyən və Azərbaycan məhsulu olan bütün notariat fəaliyyətinə dair "Mobil notariat" qovluğu ilə tanışlıq qonaqların böyük marağına səbəb olub. Bildiriblər ki, notariat sahəsindəki müsbət təcrübəmizdən yararlanmaq məqsədilə Tacikistan notariuslarının ölkəmizə səfəri onlar üçün də faydalı ola bilər.

Nümayəndə heyəti həmçinin, ölkəmizdə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında probasiya institutunun tətbiqi təcrübəsi ilə tanış olub, Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti, elektron nəzarət vasitələrinin, o cümlədən elektron qolbağın imkanları və tətbiqi xüsusiyyətləri əyani nümayiş etdirilib.

Səfər çərçivəsində Ədliyyə nazirinin müavini Məhərrəm Əliyev ilə görüşən qonaqlar respublikamızın hərtərəfli tərəqqisinin şahidi olduqlarını bildirərək Azərbaycanın qısa müddətdə böyük inkişaf yolu keçdiyini vurğulayıb, ədliyyə və məhkəmə sahəsindəki yeniliklərlə tanışlıqdan yüksək təəssüratlarını bölüşərək qısa zamanda vətəndaşlara xidmət sahəsində müasir innovativ texnologiyaların tətbiqi üzrə əldə olunan nailiyyətləri təqdir ediblər. Həmçinin əməkdaşlığın genişləndirilməsində, yaxşı praktikaların öyrənilməsində maraqlı olduqlarını söyləyərək müsbət təcrübəmizin ölkəsi üçün faydasını qeyd ediblər.

Eyni zamanda, qonaqlar paytaxtda və bölgələrdə müasir məhkəmə bina və komplekslərinə baş çəkərək məhkəmələrin fəaliyyəti və iş şəraiti, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi, həmçinin yerli və regional ədliyyə qurumları, yeni penitensiar infrastrukturla, habelə Azərbaycan brendi olan və ədliyyənin müvafiq xidmətlər göstərdiyi "ASAN xidmət"in innovativ fəaliyyəti ilə tanış olub, faydalı fikir və təcrübə mübadiləsi aparıblar.

# Banqladeş penitensiar sahədə müsbət təcrübəmizdən bəhrələnmək niyyətindədir

**İyunun 24-də Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə Azərbaycanda səfərdə olan Banqladeş Xalq Respublikasının Penitensiar xidmətinin rəisi briqadir general Mustafa Kamal Paşa ilə Ədliyyə Nazirliyinin Penitensiar xidmətində görüş keçirilib.**



Azərbaycan və Banqladeş arasında əlaqələrdən danışan Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Həsənov ikitərəfli münasibətlərin ədliyyə, o cümlədən penitensiar sahədə inkişafı üçün yaxşı imkanların olduğunu vurğulayıb, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sahəsində aparılan islahatlar, penitensiar sistemin və infrastrukturunun müasirləşdirilməsi, məhkumların hüquqlarının qorunması, penitensiar müəssisələrin mühafizəsinin və təhlükəsizliyinin təmin olunması barədə məlumat verib.

Bildirilib ki, bu sahədə Azərbaycanın təcrübəsi və əldə edilmiş uğurlar bir çox ölkələrin marağına səbəb olub və müsbət təcrübəmizin öyrənilməsi üçün həm ikitərəfli səviyyədə, həm də beynəlxalq təşkilatların xətti ilə çoxsaylı səfərlər təşkil olunur.

Görüşdə iştirak edən BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Elena Aymone Sessera Ədliyyə Nazirliyi ilə əməkdaşlığın böyük etibar və inam üzərində qurulduğunu qeyd edib, birgə uğurlu layihələri və tədris tədbirlərini vurğulayıb.

Mustafa Kamal Paşa Azərbaycanda digər sahələrdə olduğu kimi, penitensiar sistemdə də həyata keçirilən işlərin onda dərin təəssürat yaratdığını qeyd edib, ölkəsinin həbsxana sistemi barədə məlumat verərək, bu sahədə islahatlara ehtiyac olduğunu bildirib, bu məqsədlə Azərbaycan təcrübəsindən yararlanmaq niyyətində olduğunu vurğulayıb.

Tibb Baş idarəsinin rəisi Rəfail Mehdiyev BQXK ilə əməkdaşlıqda məhkumların psixi sağlamlığı, narkomaniya ilə mübarizə üzrə birgə layihələrin təşviq olunduğunu bildirib, Tibb xidmətinin kadr potensialının gücləndirilməsi üçün görülən işlər barədə məlumat verib.

Səfər çərçivəsində Banqladeş Xalq Respublikasının Penitensiar xidmətinin rəisi penitensiar müəssisələrin fəaliyyəti, məhkumların saxlanma şəraiti ilə tanış olub.

# Məhkumlara tibbi xidmətdə müsbət təcrübəmiz dünyada örnəkdir

**Ümumbəşəri sosial bəla olan vərəmə qarşı mübarizə bütün dünyanı narahat edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təhlillərinə görə, hər il dünyada vərəmdən 1 milyon 700 min insan vəfat edir, həbsxanalarda isə vərəmin yayılma riski 100 dəfə daha yüksəkdir.**

Ölkəmizdə bu xəstəliyə qarşı mübarizə daim diqqətdə saxlanılaraq ÜST-ün tövsiyələrinə uyğun strategiyalar hazırlanıb, xüsusi qanun qəbul olunub, beynəlxalq təşkilatlarla birgə müvafiq proqramlar və





layihələr həyata keçirilir, o cümlədən penitensiar müəssisələrdə vərəmə qarşı səmərəli mübarizə aparılır.

Ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamlarına əsasən penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, məhkumların və təqsirləndirilən şəxslərin hüquqlarının qorunması, tibbi və dərman təminatının yaxşılaşdırılması üzrə ardıcıl tədbirlər görülür, penitensiar müəssisələr müasir tibb avadanlığı ilə təchiz olunur.

Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə uzun illər məhkumlara yüksək ixtisaslı tibbi yardımın göstərilməsi sahəsində səmərəli əməkdaşlıq edilərək məhkumlar arasında vərəmə qarşı mübarizədə müsbət nəticələrə nail olunub, vərəmin dəqiq diaqnozunu ən qısa vaxtda müəyyən etməyə imkan verən yeni ekspress-test dünyada ilk dəfə olaraq penitensiar müəssisələrdə məhz Azərbaycanda tətbiq edilib. Eyni zamanda, vərəmli məhkumların effektiv müalicəsinin təmin edilməsi, onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə ixtisaslaşdırılmış müalicə müəssisəsi fəaliyyət göstərir.

Bütün bunlar penitensiar müəssisələrdə vərəmdən ölümün və ona yoluxma hallarının sayının ilbəil azalmasına səbəb olub. BQXK ilə bu sahədə məqsədyönlü fəaliyyətin başlandığı 1995-ci illə müqayisədə penitensiar müəssisələrdə vərəmdən ölüm 126 dəfəyədək azalıb. Son 5 illə müqayisədə isə 2018-ci ildə vərəm hallarının sayı 3 dəfəyədək, vərəmdən ölüm isə 3,3 dəfə az olub.

Ölkəmizdə ÜST-ün tövsiyə etdiyi vərəmin uğurlu müalicəsi üzrə hədəf göstəriciləri aşaraq dərmanlara həssas vərəmli məhkumların müalicəsi üzrə 92 faiz, müalicəyə çətin tabe olan dərmanlara davamlı formalı vərəmə düçar olmuş xəstələrin müalicəsi üzrə isə 78 faiz müsbət nəticələrə nail olunub ki, bu da dünyada ən yüksək göstəricilərdəndir.

Bu sahədə Azərbaycanın uğurları ÜST, Qlobal Fond, BQXK, BMT-nin İqtisadi və Sosial Şurasında məşvərətçi statusuna malik olan İslah Müəssisələri və Həbsxanalar Beynəlxalq Assosiasiyası (İCPA), "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" və digər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək region ölkələri üçün nümunəvi təcrübə kimi göstərilib, İCPA-nın illik Səhiyyə Mükafatına layiq bilinib.

Bununla yanaşı, ölkəmizin penitensiar müəssisələrində vərəmlə mübarizə üzrə müsbət təcrübə ÜST tərəfindən örnək kimi dəyərləndirilərək, digər region dövlətlərinin bu təcrübədən bəhrələnməsi tövsiyə edilib. Bu məqsədlə 2012-ci ildən İxtisaslaşdırılmış müalicə müəssisəsinin nəzdində fəaliyyət göstərən Təlim Mərkəzi tərəfindən xarici dövlətlərin nümayəndə heyətləri üçün mütəmadi beynəlxalq treninqlər və tanışlıq səfərləri təşkil edilir.

2014-cü ildə ÜST Avropa Regional Bürosu tərəfindən "Həbsxanalarda vərəmə nəzarət və profilaktika üzrə ÜST ilə Əməkdaşlıq Mərkəzi" beynəlxalq statusu verilmiş Təlim Mərkəzində 2015-2018-ci illər dövründə Qərbi Avropa, Asiya, Afrika, Mərkəzi Amerika və MDB dövlətlərinin Ədliyyə, Səhiyyə və Daxili İşlər nazirliklərini, penitensiar müəssisələrin tibb xidmətlərini, qeyri-hökumət və beynəlxalq təşkilatları təmsil edən nümayəndə heyətləri üçün 7 beynəlxalq treninq keçirilib, Azərbaycanın təcrübəsini öyrənmək üçün nüfuzlu beynəlxalq təşkilatlar olan

Avropa Şurası, ÜST və BQXK-nın xətti ilə 10 tanışlıq səfəri təşkil olunub. Ümumilikdə isə, son illər 20 dövlətdən 230-dək nümayəndə Bakıya səfərlər edərək müsbət təcrübəmizdən bəhrələnib və müxtəlif mövzularda təlimlərdə iştirak ediblər. Artıq bəzi ölkələrdə bizim təcrübəyə uyğun modellərin tətbiqinə başlanılıb.

Qeyd olunmalıdır ki, ÜST-ün Baş Direktoru Dr. Tedros Adhanom Qebreyesus ötən il Azərbaycanda səfərdə olarkən Beynəlxalq Təlim Mərkəzinin fəaliyyəti, müasir şəraiti, həmçinin video-konfrans vasitəsilə distant treninqin təşkili ilə tanış olaraq respublikamızın vərəmlə mübarizədə müsbət nəticələrə nail olunmasında dövlətimizin güclü siyasi iradəsini, bu sahədə Azərbaycanın tətbiq etdiyi standartların ən yaxşı təcrübə təşkil etdiyini və müsbət təcrübəmizin dünyada daha geniş yayılmasının önəmini vurğulayıb. Təlim Mərkəzinin vərəmlə mübarizədə Azərbaycan təcrübəsinin digər dövlətlərə yayılmasında və öyrənilməsində səmərəli fəaliyyəti nəzərə alınaraq beynəlxalq statusu növbəti dörd il müddətinə uzadılıb.

Bu sahədə Azərbaycanın təcrübəsini öyrənmək məqsədilə cari il iyunun 16-dan 22-dək 7 ölkədən (Çin, İraq, Bangladeş, Filippin, Ukrayna, Belarus və Türkmənistan) səhiyyə, penitensiar xidmət və beynəlxalq təşkilatların vərəmlə mübarizə sahəsində işləyən 30 nəfərdən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə olub.



Səfər zamanı nümayəndə heyəti üçün Beynəlxalq Təlim Mərkəzində "Yeni vərəməleyhi dərmanların və müalicə rejimlərinin tətbiqi dövründə Çoxsaylı / Geniş Dərmanlara Davamlı Vərəmin yüksək yükü olan ölkələrin həbsxanalarında vərəmə nəzarət tədbirlərinin təkmilləşdirilməsi" mövzusunda ingilis və rus dillərində beynəlxalq tədris kursu keçirilib.

ÜST, BQXK, "Sərhədsiz həkimlər, "Vərəmi Dayandırmaq üzrə Tərəfdaşlıq" və s. ixtisaslaşmış beynəlxalq təşkilatlarla birgə müasir tələblərə uyğun hazırlanmış kursun proqramına müvafiq olaraq mühazirəçilər qismində Ədliyyə Nazirliyi Tibb baş idarəsinin və İxtisaslaşdırılmış müalicə müəssisəsinin aparıcı mütəxəssisləri ilə yanaşı, Avropanın ən tanınmış beynəlxalq ekspertləri də cəlb edilib.

Kurs dövründə dinləyicilər penitensiar müəssisələrdə vərəmə nəzarət üzrə görülən işlərlə əyani tanış olub, onlara həbsxana populyasiyası arasında vərəmin aşkarlanması, innovativ texnologiyaların tətbiqi ilə laborator diaqnostika, infeksiyaya nəzarət tədbirlərinə və saxlanma rejimi qaydalarına riayət edilməklə mərkəzləşdirilmiş model əsasında müalicə üzrə bir sıra tədbirlər praktiki nümayiş etdirilib.

Eyni zamanda dinləyicilərə, eləcə də mühazirəçilər qismində dəvət olunmuş beynəlxalq ekspertlərə dərmanlara həssaslıq göstəricilərinə müvafiq olaraq müalicə rejimlərinin təyini, beynəlxalq yanaşmalara və standartlara müvafiq innovativ laborator diaqnostika metodlarının geniş tətbiqi, məhbusların saxlanma rejiminin gözlənilməsi şərti ilə infeksiyaya nəzarət tədbirlərinə riayət olunması, azadlığa buraxılan xəstələrin müalicəsinin sonadək izlənilməsi və onlara sosial dəstək kimi Azərbaycanın unikal təcrübəsi təqdim olunub.

Səfər çərçivəsində nümayəndə heyəti, həmçinin Bakının tarixi və mədəni abidələri ilə tanış olub.

# Azərbaycan notariatındakı islahatlar beynəlxalq maraq doğurur

**İyunun 11-12-də Rusiya Federasiyasının Xantı-Mansiysk şəhərində XI Beynəlxalq İnformasiya Texnologiyaları Forumu keçirilib.**



Rusiya, Avstriya, Belarus və Qazaxıstan notariuslarının və informasiya sistemləri inzibatçılarının qatıldığı tədbirdə ölkəmizin Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin məsul nümayəndəsi Zaur Həsənov, xüsusi notariuslar Hüseyn Məmmədov, Süleyman Məmmədov və Dəyanət Tağıyev iştirak ediblər.

Forum çərçivəsində notariuslar və sistem inzibatçıları üçün keçirilmiş seminarın açılışında Federal Notariat Palatası prezidentinin müşaviri Mixail Mukovozov çıxış edərək tədbirin əhəmiyyətini qeyd edib, notariat sahəsində rəqəmsallaşdırmanın rolunu vurğulayıb, Rusiya notariatında innovasiyaların tətbiqi və inkişaf perspektivləri barədə məlumat verib.

Tədbirdə rusiyalı mütəxəssislərin informasiya sistemlərində saxlanılan məlumatların mühafizəsi, digər informasiya resursları ilə məlumat mübadiləsinin genişləndirilməsi, notariat fəaliyyətində elektron imzanın tətbiqi, bəzi notariat hərəkətlərinin gələcəkdə video-qeydiyyatının təşkili barədə məruzələri dinlənilib, iştirakçı dövlətlərin notariatında tətbiq olunan informasiya sistemləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanın "Elektron notariat" informasiya sisteminin imkanları, onun digər informasiya resursları ilə qarşılıqlı məlumat mübadiləsi, yeni texnologiyaların tətbiqinin notariat hərəkətlərinin rəsmiləşdirilməsində müstəsna əhəmiyyəti barədə əyani təqdimatla çıxış edilib. Bu sahədə ölkəmizin nailiyyətləri, o cümlədən notariat hərəkətlərinin asan və çevik aparılması, əhalinin məmnunluğunun təmin olunması üçün məsafədən xidmətlərin göstərilməsinə imkan verən elektron ədliyyə köşkü, səyyar notariat çantası, mobil notariat qovluğu iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Tədbir çərçivəsində son dövrlərdə Rusiyada kibercinayətlər nəticəsində saxta elektron imzadan istifadə etməklə vətəndaşların mülkiyyət hüquqlarının pozulması və belə halların qarşısının alınması məqsədilə daşınmaz əmlakın özgəninkiləşdirilməsi, eləcə də bu qəbildən olan müqavilələrin mütləq şəkildə notarius vasitəsilə həyata keçirilməsinin vacibliyi geniş müzakirə olunub.

Ölkəmizin nümayəndə heyəti iyunun 13-14-də Qazaxıstanın Nur-Sultan şəhərində keçirilmiş "Latın notariat sisteminin prinsipləri" və "Müasir notariat sistemində rəqəmsal texnologiyalar" mövzusunda Birinci Mərkəzi-Asiya Beynəlxalq Notariat Konfransında da iştirak edib.

Qazaxıstan Notariat Palatasının Beynəlxalq Notariat İttifaqının Notariat Əməkdaşlığının Beynəlxalq Komissiyası ilə birgə təşkil etdiyi tədbirə Komissiyanın prezidenti Franz Leopold, eləcə də Rusiya, Almaniya, Fransa, İsveçrə, Litva, Avstriya, Sloveniya, Gürcüstan, Ukrayna,

Qazaxıstan, Özbəkistan, Tacikistan və Qırğızıstan Ədliyyə nazirliklərinin nümayəndələri, notariat palatalarının rəhbərləri və üzvləri, həmçinin notariuslar qatılıblar.

Konfransda latın notariat sisteminin qabaqcıl prinsipləri, Avropa hüququnda notariatın rolu, transformasiya iqtisadiyyatında dayanıqlı notariat sistemlərinin yaradılması, notariat fəaliyyətində elektron idarəetmənin növləri və rəqəmsallaşdırma ilə bağlı mövzular üzrə məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Tədbirdə son illər Azərbaycanda notariat sahəsində aparılan islahatlar, əhaliyə göstərilən elektron xidmətlər və tətbiq olunan innovasiyalar barədə geniş təqdimat nümayiş etdirilib, ölkəmizin bu sahədə nailiyyətlərinə, həmçinin Almaniya Federal və Qazaxıstan Notariat Palatalarının rəhbərləri tərəfindən istinad edilərək yüksək qiymətləndirilib.

# Ədliyyə Nazirliyi tərəfindən vətəndaş cəmiyyəti üçün təlimlər keçirilib



**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən Şirvan, Quba və Gəncə şəhərlərində vətəndaş cəmiyyəti nümayəndələrinə "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə qeyri-hökumət təşkilatlarının öhdəlikləri" adlı təlimlər keçirilib.**

Təlimlərdə Ədliyyə Nazirliyinin məsul əməkdaşları, ekspert qismində Ədliyyə naziri yanında İctimai Komitənin üzvü Əliməmməd Nuriyev, həmin şəhərlərdə və ətraf rayonlarda fəaliyyət göstərən vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçılarına qeyri-hökumət təşkilatının daxili nəzarət sisteminin hazırlanması, məsul şəxsin və daxili auditorun təyin edilməsi, müştərilərin eyniləşdirilməsi, verifikasiyası və sair mövzularda mühazirələr oxunub, təqdimatlar keçirilib.

Belə tədbirlərin silsilə xarakter daşımaqla digər regionlarda da təşkili nəzərdə tutulur.



# İxtisaslaşdırılmış Məhkəmə Hakimləri İctimai Birliyinin üzvlərinin iştirakı ilə seminar keçirilib

**İyunun 1-də Bakı şəhəri Sabunçu Məhkəmə Kompleksində İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyi (Assosiasiyası) tərəfindən Ali Məhkəmənin, apelyasiya məhkəmələri inzibati-iqtisadi kollegiyalarının və inzibati-iqtisadi məhkəmələrin hakimlərinin iştirakı ilə Azərbaycan ədliyyəsinin və məhkəmə sisteminin yeni mərhələdə inkişafına və inzibati-iqtisadi işlər üzrə məhkəmə təcrübəsinin öyrənilməsinə həsr edilmiş seminar keçirilib.**

İclasda giriş sözü ilə çıxış edən Assosiasiyanın və Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq sisteminin dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə inkişafını, bu sahədə genişmiqyaslı islahatların aparıldığını vurğulayıb. Qeyd edib ki, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə həyata keçirilən ardıcıl tədbirlərin davamı olaraq "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə



sisteminin inkişafında yeni mərhələ olmaqla bu sahədə islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə rəvac verib, o cümlədən elektron məhkəmənin tətbiqi ilə bağlı təşkilati işlərin yekunlaşdırılmasını, onun funksionallığının artırılmasını, fiziki və hüquqi şəxslərin bu sistemdən istifadəsinin təşviqini şərtləndirib.

Tədbirdə Fərmandan irəli gələn məsələlər müzakirə olunub, ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə 2018-ci il 28 dekabr tarixli Qanunla Mülki Prosessual Məcəlləyə edilmiş əsaslı dəyişikliklərin əhəmiyyətinə toxunularaq "Elektron Məhkəmə" informasiya sisteminin məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, məhkəmə icraatının elektron qaydada aparılmasına, operativliyin və şəffaflığın təmin olunmasına, vətəndaşların məhkəmələrə müraciət imkanlarının genişləndirilməsinə xidmət etdiyi bildirilib.

Ekspert qismində iştirak edən Ali Məhkəmənin hakimləri Xəqani Məmmədov və Zakir Quliyev inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə qarşıya çıxan problemlər haqqında məlumat verib, mövcud məhkəmə təcrübəsi müzakirə edilib. Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səyyad Kərimov isə "Azərbaycan Respublikasında inzibati hüququn islahatı, inkişaf və perspektivləri" mövzusunda məruzə edərək, diskussiyalar keçirilib.

Seminar iştirakçıları konkret hallarla bağlı ekspertlərə suallar verib və fikir mübadiləsi aparılıb, tövsiyələr verilib.

# Ədliyyə Akademiyasının məlumatları

## Lənkəran Dövlət Universitetində məhkəmə-hüquq islahatları ilə bağlı ictimai müzakirə keçirilib





**Lənkəran Dövlət Universitetində (LDU) Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ilə bağlı ictimai müzakirələr keçirilib.**

Tədbirdə LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov ölkəmizdə son dövrdə məhkəmə-hüquq sistemində aparılan islahatlardan danışıb, ölkə başçısının bu istiqamətdə imzaladığı müvafiq Fərmanı yüksək dəyərləndirib.

Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov sözügedən Fərmanı ətraflı şərh edib, onun məqsəd və vəzifələri barədə danışıb.

Maarifləndirmə tədbirində Ədliyyə Nazirliyinin "Elektron məhkəmə" informasiya sistemi üzrə işçi qrupunun üzvü Rəşad Əliyev "Elektron məhkəmə informasiya sistemi-ədalət mühakiməsində yeni mərhələ", İcra baş idarəsinin qrup rəhbəri Tural Məmmədov "Elektron icra" informasiya sistemi", Qeydiyyat və notariat baş idarəsinin İnformasiya təminatı şöbəsinin məsləhətçisi Zaur Həsənov "Məhkəmə-hüquq sistemində tətbiq edilən innovasiyalar" mövzularında təqdimatlarla çıxış ediblər.

Təqdimatlarda ədliyyə və məhkəmə sistemində tətbiq olunan innovasiyalar barədə ətraflı məlumat iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Sonda iştirakçılarla sual-cavab sessiyası keçirilərək, faydalı fikir mübadiləsi aparılıb.

## Ədliyyə Akademiyasının təlimçisi beynəlxalq konfransda iştirak edib





**İyunun 4-də Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində Avropa Şurası (AŞ) İnsan Hüquqları və Qanunun Aliliyi Baş Direktorluğu və Moldova Milli Ədliyyə İnstitutu tərəfindən "Moldova Respublikasında cinayət hüququ sisteminin insan hüquqları ilə uyğunlaşdırılmasının təşviq olunması" ilə bağlı İnsan hüquqları üzrə Avropa Konvensiyasının 5-ci maddəsi - "Azadlıq və toxunulmazlıq hüququ" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Moldova Respublikasının icra və inzibati orqanlarının, Avropa Şurasına üzv dövlətlərin nümayəndələrinin, AŞ və digər beynəlxalq təşkilatların ekspertlərinin qatıldığı tədbirdə Sumqayıt Apelyasiya Məhkəməsinin sədri, Ədliyyə Akademiyasının təlimçisi Səadət Bəktaşi və Baş Prokurorluğunun nümayəndəsi Vüqar Quliyev iştirak ediblər.

Konfransda İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 5-ci maddəsinin müddəalarının əsasını təşkil edən prinsiplər, eləcə də bu prinsiplərin effektiv həyata

keçirilməsinə dair çağırışlar və həlli yolları barədə geniş müzakirələr aparılıb.

Plenar iclasdan və paralel qrup iclaslarından ibarət tədbirdə ölkəmizin nümayəndələri İnsan hüquqları üzrə Avropa Konvensiyasının 5-ci maddəsində qeyd olunan "Azadlıq və toxunulmazlıq hüququnun əsas prinsipləri" mövzusuna dair məruzə ilə çıxış ediblər.

## ◆Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə birgə təlim



**"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanından irəli gələn məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlili və bu fəaliyyətin keyfiyyətinin artırılması barədə tövsiyələrin icrası üçün bir sıra tədbirlər görülür.**

Bu məqsədlə Ədliyyə Akademiyası və Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən birgə təlim kursu keçirilib.

Kursa Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinə təyinatla əlaqədar müsabiqədə müvəffəqiyyət qazanmış namizədlər cəlb olunublar.

İyunun 11-də Ədliyyə Akademiyasında kursun açılışı olub. Akademiyanın rektoru vəzifəsini icra edən Elçin Xələfov və Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov çıxış edərək dövlət başçısının məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinə dair Fərmanının müstəsna əhəmiyyətindən bəhs edib, bu mühüm sənədin məhkəmə, ədliyyə və prokurorluq orqanları üçün "yol xəritəsi" olduğunu vurğulayıblar. Bildirilib ki, təlimin əsas məqsədi namizədlərin peşə hazırlığı səviyyəsinin artırılmasıdır.

Təlim kursu ərzində "Təqsirin sübutunun xüsusiyyətləri", "Cinayət mühakimə icraatında sübutlar və sübutetmə", "İttiham aktının faktiki və hüquqi əsaslarının təhlili xüsusiyyətləri", "Cinayətlərin və hökmlərin məcmusu qaydasında cəza təyin edilməsi məsələləri", İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin (ədalətli məhkəmə araşdırması hüququ) prosessual aspektlərinə əməl olunması vəziyyətinin məhkəmədə yoxlanması və qiymətləndirilməsi metodikası", "Məhkəmə prosesi iştirakçıları ilə ünsiyyətin psixoloji xüsusiyyətləri" və s. bu kimi aktual mövzular üzrə mühazirələr tədris olunub.

## ◆ "İnsan alverinə qarşı mübarizə üzrə milli potensialların artırılması" layihəsi başa çatıb

**İyunun 12-də Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə "İnsan alverinə qarşı mübarizə üzrə milli potensialların artırılması" layihəsinin bağlanış mərasimi keçirilib.**

Tədbirdə BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Vladimir Gjorgjiev, BMT-nin Rezident Əlaqələndiricisi Qulam Isakzai, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, Daxili İşlər Nazirliyi İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi

Heydər Heydərov, Xarici İşlər Nazirliyi Humanitar və Sosial məsələlər idarəsinin rəhbəri Əlimirzamin Əskərov, Dövlət Miqrasiya Xidmətinin rəis müavini Pərviz Musayev və Ədliyyə Akademiyasının rektor vəzifəsini icra edən Elçin Xələfov giriş nitqi ilə çıxış edib, layihənin icrası dövründə keçirilmiş təlimlərdən, təşkil olunmuş tədris səfərlərindən, çap olunmuş kurikulum və dərs vəsaitindən və digər görülmüş işlər barədə məlumat verib, layihənin uğurlu gedişatından bəhs ediblər.

Daha sonra BMqT-nin Azərbaycandakı Nümayəndəliyində layihə rəhbəri Marija Nikolovska layihə çərçivəsində görülmüş işlər barədə təqdimatla çıxış edib.








Tədbirdə hakimlər, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Miqrasiya Xidmətinin, Ədliyyə Akademiyasının əməkdaşları, Vəkillər Kollegiyasının üzvü və digər dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

2016-cı ilin noyabr ayından etibarən Avropa İttifaqı və BMqT-nin İnkişaf Agentliyi tərəfindən birgə maliyyələşən "Azərbaycanda insan alverinə qarşı mübarizə üzrə milli potensialların artırılması" layihəsinin məqsədi insan alverinə qarşı effektiv mübarizə aparmaq və insan alveri qurbanlarını müdafiə etmək sahəsində bilik və bacarıqların artırılmasından ibarət olub.

Yekunda BMqT-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri V.Gjorgjiev layihə çərçivəsində uğurlu əməkdaşlığa görə Təşkilatın tərəfdaşlarına təşəkkürnamələr təqdim edib.

## ◆ Azərbaycanda cinayət ədliyyə sisteminin təkmilləşdirilməsi üzrə yol xəritəsinin təqdimat konfransı keçirilib

**İyunun 13-də Avropa Şurasının (AŞ) təşkilatçılığı ilə "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" layihəsi çərçivəsində "Azərbaycanda cinayət ədliyyə sisteminin təkmilləşdirilməsi üzrə yol xəritəsi"nin təqdimat konfransı keçirilib.**




Tədbirdə Avropa Şurasının rəsmiləri, diplomatik korpusun və beynəlxalq təşkilatların təmsilçiləri, Ombudsman Aparatının, Məhkəmə-Hüquq Şurasının, Baş Prokurorluğun, Konstitusiya Məhkəməsinin, Ədliyyə və Xarici İşlər nazirliklərinin məsul şəxsləri, millət vəkili, hakimlər, vəkillər və Bakı Dövlət Universitetinin müəllimləri və vətəndaş cəmiyyəti institutları iştirak ediblər.

Konfransın açılışında Avropa Şurasının Bakıdakı ofisinin rəhbəri Zoltan Hernyes, AŞ Proqram Meneceri Mahir Müşteidzadə, AŞ İnsan Hüquqları Siyasəti və İnkişaf Departamentinin rəhbəri Mixail Lobov, ABŞ-ın Azərbaycandakı Səfirliyi Siyasi Şöbənin rəhbər müavini William C.Solley və Ədliyyə Akademiyasının rektor vəzifəsini icra

edən Elçin Xələfov çıxış ediblər.

Təqdimatda Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ baxımından əsas konseptual məsələlər, Azərbaycanla bağlı qərarların icrası və Avropa İnsan Hüquqları Konvensiyasının müvafiq maddələri kontekstində cinayət ədliyyə sistemin təkmilləşdirilməsi üzrə tövsiyələr haqqında geniş müzakirələr aparılıb.

Rusiya Dövlət Ədalət Mühakiməsi Akademiyasının şöbə müdiri, h.e.d, dosent Oksana Kaçalova, Avropa Şurasının eksperti Mr. Mamuka Lonquraşvili, ölkəmizin Ali Məhkəməsinin hakimi Xəqani Məmmədov, Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin nəzarət və analitik iş üzrə qrup rəhbəri Səkinə Əliyeva və Vəkillər Kollegiyasının üzvü Fərid Həsənovun cinayət prosessual qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyasının və onun protokollarının standartlarına uyğunluğuna dair hazırlanmış tövsiyələr barədə təqdimatları dinlənilib.

"Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək layihəsi"nin yekunlarına həsr olunan tədbirin ikinci hissəsində layihə barədə məlumat verilib, onun uğurla nəticələrindən bəhs olunub.

## ◆Əqli Mülkiyyət Agentliyi ilə birgə təlim

**Əqli Mülkiyyət Agentliyi və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə iyunun 14-də "Məhkəmə islahatları: Məhkəmə hüquq sisteminin əqli mülkiyyət hüquqlarının təminatında rolu" mövzusunda təlim keçirilib.**



Təlimdə Nazirlər Kabineti Aparatının, Ədliyyə Akademiyasının və Vəkillər Kollegiyasının məsul şəxsləri, Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və əməkdaşları, hakimlər iştirak ediblər.

Tədbirin açılışında Ədliyyə Akademiyasının rektoru vəzifəsini icra edən Elçin Xələfov və Əqli mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov çıxış edərək "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" ölkə Prezidentinin 3 aprel 2019-cu il tarixli Fərmanının icrası ilə görülən tədbirlər, əqli mülkiyyət hüquqlarının müdafiəsi və bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi məsələləri barədə məlumat veriblər.

Təlim zamanı əqli mülkiyyət hüquqlarının təminatının hüquqi çərçivəsinə ümumi baxış, kontrafaktçılıq və piratçılığın əhatə dairəsi, mülki, inzibati və cinayət işlərində əqli mülkiyyət hüquqlarının pozuntularının sübutları, zərərin hesablanması, sərhəd təminatı kimi mövzular işıqlandırılıb.

## ◆"Yuvenal Probasiya" mövzusunda təlim

**Ədliyyə Akademiyası tərəfindən ədliyyə işçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə mütəmadi seminarlar, ixtisasartırma kursları və digər tədbirlər keçirilir, bu sahədə digər dövlət qurumları və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edilir.**

BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı Nümayəndəliyinin, Ədliyyə Nazirliyi Probasiya Xidmətinin və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə Probasiya xidmətinin əməkdaşları üçün "Yuvenal Probasiya" mövzusunda iki günlük təlim keçirilib.

Tədbiri giriş sözü ilə Ədliyyə Akademiyasının rektor əvəzi Elçin Xələfov, Probasiya xidmətinin rəis müavini Musa Hümbətov və UNICEF-in Azərbaycandakı nümayən-

dəliyinin Uşaq müdafiəsi proqramının rəhbəri Vüqar Salmanov açaraq, ölkəmizdə yuvenal ədliyyənin inkişafı üzrə görülən işlərdən, Probasiya institutunun azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında rolundan bəhs edib, bu sahədə işin səmərəli təşkili, icra və probasiya məmurlarının peşəkarlıqlarının artırılması baxımından təlimin əhəmiyyətindən danışıblar.




Təlimdə "Yuvenal ədliyyə sistemi. Azərbaycanda təcrübə və görülmüş işlər barədə məlumat", "Probasiya xidmətinin anlayışı, yaranma tarixi," "Probasiya xidmətində sosial işin təşkili, yetkinlik yaşına çatmayanların fərdi xüsusiyyətlərinin xarakteristikası" kimi mövzular barədə təqdimatlar dinləyicilərin diqqətinə çatdırılıb.

Proqrama əsasən təlimlər interaktiv şəkildə həyata keçirilərək, mövzu ətrafında müzakirələr, müxtəlif qrup işləri aparılıb.

## ◆Ədliyyə Akademiyasında GİZ ilə birgə təlimlər keçirilib



**Ədliyyə Akademiyası tərəfindən beynəlxalq təşkilatlarla əməkdaşlıqda həyata keçirilən silsilə tədris tədbirləri çərçivəsində iyunun 24-25-də Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə birgə Bakı Dövlət Universitetinin müəllimləri və Akademiyanın əməkdaşları üçün Mülki Prosessual Məcəllənin öyrənilməsinə həsr olunmuş iki günlük təlim keçirilib.**

GİZ-in "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşmanın dəstəklənməsi" regional proqramı çərçivəsində təşkil olunan təlimin açılışında GİZ-in proqram rəhbəri Tomas Meyer çıxış edərək Ədliyyə Nazirliyi, o cümlədən Ədliyyə Akademiyası ilə səmərəli əməkdaşlıqdan, hakimlər və digər hüquqşünaslar üçün birgə tədris tədbirlərinin təşkilindən bəhs edib, təlimin əhəmiyyətini vurğulayıb.

Təlimdə Almaniya Regional Məhkəməsinin keçmiş baş hakimi Tomas Herrman və Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dosenti - GİZ-in mütəxəssisi Florian Riehl, həmçinin ölkəmizin Vəkillər Kollegiyasının üzvü Elçin Usub təlimçi qismində çıxış edib, mülki hüquq sahəsində keyslərin metodik prinsipləri haqqında ümumi məlumat verilib.

***

İyunun 27-28-də keçirilmiş növbəti təlim Ali Məhkəmənin və Bakı Apellyasiya Məhkəməsinin təlimçi hakimləri üçün "Mülki prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması" mövzusuna həsr olunub.

Tədbirdə Almaniya Regional Məhkəməsinin keçmiş baş hakimi Thomas Herrmanın təqdimatları dinlənilib, mülki prosesdə hakimlərin iş metodikasının səmərəliliyinin artırılması ilə bağlı məsələlər hakimlərin diqqətinə çatdırılıb.

İnteraktiv formada keçirilən təlimlərdə müxtəlif kazuslar üzrə iş aparılıb, diskussiyalar keçirilərək maraq doğuran suallar ətraflı cavablandırılıb.

# Vətəndaşların virtual qəbulu keçirilib

**Azərbaycan Respublikası Prezidentinin vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılaraq, vətəndaşların nazirlikdə, bölgələrdə və müasir İKT-lər tətbiq olunmaqla virtual qəbul məntəqələri vasitəsilə qəbuluna xüsusi önəm verilir.**





Nazirliyin İcra baş idarəsinin rəhbərliyi tərəfindən Gəncə, Şirvan, Şəki və Xaçmaz regional ədliyyə idarələri ilə video-konfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün video-qəbul keçirilib.

Video-qəbulda vətəndaşların icra xidmətinin fəaliyyəti, o cümlədən məhkəmə qərarlarının icrası ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin bir qismi elə yerindəcə həll edilib, qanunvericiliyin tələbləri ətraflı izah olunub, digər müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

# Bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi üzrə ardıcıl tədbirlər görülür

**Ədliyyə Akademiyası və Bələdiyyələrlə iş mərkəzi Şəki və Şəmkir şəhərlərində bələdiyyə üzvləri və qulluqçularının maarifləndirilməsi məqsədilə tədris kursları keçiriblər.**



Ümumilikdə 130-dan çox dinləyicinin cəlb edildiyi tədbirdə bələdiyyə mülkiyyəti, strateji yol xəritəsinin icrası, bələdiyyə qulluğuna qəbul, arxiv işinin təşkili, qanunçuluğun təmin edilməsi və digər mövzular üzrə mühazirələr tədris olunub.

***

**İmişli regional ədliyyə idarəsinin təşkilatçılığı ilə cari ilin iyun ayında Saatlı, Beyləqan və Biləsuvar rayonlarında həmin rayonlar üzrə bələdiyyə sədrləri və qulluqçuları üçün seminarlar keçirilib.**

Tədbirlərdə İmişli regional ədliyyə idarəsinin rəisi Hakim Məmmədov Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, nazirliyin Bələdiyyələrlə İş Mərkəzi və regional ədliyyə idarələri tərəfindən bələdiyyə üzvləri və qulluqçularının hüquqi maarifləndirilməsi, onlara metodiki kömək göstərilməsi və fəaliyyətlərinə inzibati nəzarət sahəsində görülən işlər barədə məlumat verib, qarşıda duran vəzifələrdən danışıb.

Həmçinin "Yerli özünüidarəetmədə etik davranış", "Dövlət büdcəsindən subvensiya alınması üçün layihələrin hazırlanması", "Strateji yol xəritəsinin icrasında bələdiyyələrin iştirakı", "Bələdiyyə torpaqlarının mühafizəsi", "Bələdiyyə torpaqlarının idarə edilməsində qanunçuluğun təmin edilməsi" və "Qəbiristanlıqların saxlanılması, idarə olunması, abadlaşdırılması, köçürülməsi sahəsində bələdiyyələrin hüquq və vəzifələri" mövzuları üzrə seminar iştirakçılarına ətraflı məlumat verilib, bələdiyyə nümayəndələrinin sualları cavablandırılıb.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (I kitab), maddə 202, N 3, maddələr 397, 403, 429, N 4, maddələr 631, 647, 654, N 5, maddələr 835, 846, N 6, maddələr 997, 1010, N 7, maddələr 1247, 1249, N 10, maddə 1608, N 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, N 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, N 1, maddə 21, N 2, maddələr 139, 147, 152, 162, N 3, maddələr 331, 344, N 5, maddələr 698, 701, 734, 749, 754, N 6, maddələr 1020, 1033, 1036, N 7, maddələr 1273, 1296, 1297, 1299, N 11, maddələr 1964, 1966, 1969, 1979, N 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, N 1, maddə 19, N 2, maddələr 160, 162, 163, N 3, maddələr 383, 401, 404, N 4, maddə 646, N 5, maddələr 857, 860, 862, 876, 883, N 6, maddələr 1153, 1188, N 7 (I kitab), maddələr 1435, 1437, 1438, N 10, maddə 1963, N 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, N 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, N 1, maddələr 4, 6, 15, 18, 23, 44; Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1476-VQD nömrəli, 19 fevral tarixli 1516-VQD nömrəli, 5 mart tarixli 1520-VQD, 1522-VQD nömrəli, 29 mart tarixli 1538-VQD nömrəli qanunları) 462-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 462. Mühasibat uçotu üzrə qanunvericiliyin pozulması**

462.1. Mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməli olan digər hesabat və məlumatların hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanuna əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin əks etdirilməsi, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunla müəyyən edilmiş qaydaların pozulmasına, habelə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mühasibat uçotunun aparılmamasına görə -

vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

462.2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq mühasibat uçotu subyektlərində mühasibat uçotunun aparılması məqsədi ilə mühasibat uçotu subyektinin rəhbəri tərəfindən müvafiq struktur bölmənin yaradılmamasına və ya müqavilə əsasında sahibkarlıq subyektləri cəlb edilməklə, mühasibat uçotu xidmətinin göstərilməsinin təşkil edilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək

məbləğdə cərimə edilir.

462.3. Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin rəhbərləri tərəfindən peşəkar mühasib olmayan şəxslərin baş mühasib vəzifəsinə təyin edilməsinə, habelə peşəkar mühasib olmayan şəxslərə baş mühasib vəzifələrinin icrasının həvalə edilməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 462.3-cü maddəsi həmin maddədə göstərilən mühasibat uçotu subyektlərinə münasibətdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 18.5-ci maddəsi ilə müəyyən edilmiş müddətlər nəzərə alınmaqla tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 3 may 2019-cu il*
*N 1583-VQD*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 4 (I kitab), maddə 250, N 5, maddə 323; 2002, N 12, maddə 709; 2003, N 8, maddə 420; 2004, N 3, maddə 123, N 5, maddə 318, N 6, maddə 415, N 10, maddə 761, N 11, maddə 901; 2005, N 2, maddə 61, N 6, maddə 466, N 8, maddələr 684, 692, 693, N 11, maddə 996, N 12, maddə 1085; 2006, N 2, maddə 68, N 3, maddə 225, N 5, maddə 387, N 6, maddə 478, N 8, maddə 657, N 12, maddə 1005; 2007, N 2, maddə 80, N 6, maddə 560, N 8, maddə 745, N 10, maddə 937, N 11, maddə 1053, N 12, maddələr 1215, 1219; 2008, N 3, maddə 145, N 6, maddə 456, N 7, maddə 602, N 12, maddə 1049; 2009, N 2, maddə 47, N 5, maddə 295, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 2, maddə 75, N 3, maddə 171, N 4, maddələr 265, 266, 276; 2011, N 2, maddə 71, N 7, maddə 586, N 8, maddə 750, N 12, maddələr 1073, 1102; 2012, N 1, maddə 5, N 5, maddə 403, N 6, maddə 498; 2013, N 1, maddə 15, N 6, maddə 620, N 11, maddə 1280, N 12, maddələr 1469, 1478; 2014, N 2, maddə 96, N 7, maddə 768; 2015, N 3, maddə 254, N 5, maddə 512, N 7, maddə 814, N 10, maddə 1093; 2016, N 1, maddə 26, N 2 (I kitab), maddələr 186, 204, N 3, maddə 401, N 4, maddələr 640, 646, N 6, maddə 1005, N 7, maddə 1248, N 12, maddələr 1998, 2018; 2017, N 2, maddələr 151, 153; N 4, maddə 524, N 5, maddələr 703, 735, N 6, maddə 1035, N 11, maddə 1953, N 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, N 2, maddə 142, N 4, maddə 650, N 5, maddələr 845, 851, N 11, maddə 2212, N 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, N 1, maddələr 23, 50; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli

1566-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 850.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"850.1. Yük daşınması müqaviləsinə görə daşıyıcı yükü haqq (yüklərin daşınması üçün haqq) müqabilində olduğu yerdən təyinat yerinə daşımağı, yük göndərən, yükü alan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.".

2. 851-ci maddə üzrə:

2.1. adına "yük alan" sözlərindən sonra ". Daşıyıcı" sözü əlavə edilsin;

2.2. mətnində "daşıyıcı ilə müqavilə bağlayan" sözləri "adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi" sözləri ilə əvəz edilsin;

2.3. aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Yük alan əqd əsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxsdir. Daşıyıcı müqavilə əsasında və haqq müqabilində yükün olduğu yerdən təyinat yerinə daşınmasını həyata keçirən və mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan fiziki və ya hüquqi şəxsdir.".

3. Aşağıdakı məzmunda 853.1-1-ci maddə əlavə edilsin:

"853.1-1. Yük göndərən yükün daşınması müqaviləsinin lazımınca icrası üçün yükə aid olan sənədləri və digər məlumatları daşıyıcıya təqdim etməlidir.".

4. 861-ci maddənin mətni 861.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 861.2-ci maddə əlavə edilsin:

"861.2. Ekspeditora qarşı yaranan tələblər üzrə iddia müddəti iddia qaldırmaq hüququ yarandığı andan bir il təşkil edir. Ekspeditora qarşı iddia qaldırılmazdan əvvəl ona yazılı formada pretenziya verilməsi məcburidir. Pretenziya iddia müddəti ərzində verilə bilər. Ekspeditor pretenziyanı rədd etdikdə və ya qismən qəbul etdikdə, yaxud 30 gün müddətində pretenziyaya cavab vermədikdə, ona qarşı məhkəmədə iddia qaldırıla bilər.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 17 may 2019-cu il*
*N 1588-VQD*

"İcra haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ
# QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1295-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N

2, maddə 151, N 5, maddələr 853, 867, N 7 (I kitab), maddə 1424, N 8, maddə 1674, N 12 (I kitab), maddə 2528; 2019, N 1, maddə 21, N 2, maddə 203) 60.2-ci maddəsinə "ləğvetmə komissiyasına" sözlərindən sonra "(təsviyəçiyə, ləğvediciyə)" sözləri əlavə edilsin.

**Maddə 2.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775; 2018, N 12 (I kitab), maddələr 2471, 2531; 2019, N 1, maddələr 16, 21, N 2, maddə 176; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1404-VQD nömrəli Qanunu) 16-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 16.1-ci və 16.2-ci maddələrə "təsviyəçi" sözündən sonra ", ləğvedici" sözü əlavə edilsin.

2.2. 16.3-cü maddəyə "üzvləri" sözündən sonra "(təsviyəçi, ləğvedici)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 3, maddə 130; 2005, N 4, maddə 276; 2007, N 5, maddə 401, N 6, maddə 562, N 11, maddə 1070; 2008, N 11, maddə 960; 2009, N 6, maddə 404, N 7, maddə 517; 2010, N 4, maddə 276, N 10, maddə 839; 2011, N 7, maddə 590; 2013, N 7, maddə 790; 2014, N 7, maddə 772, N 12, maddə 1517; 2015, N 11, maddə 1262; 2016, N 3, maddə 406, N 6, maddə 975; 2017, N 4, maddə 521, N 11, maddə 1956, N 12 (I kitab), maddə 2227; 2018, N 1, maddə 33, N 5, maddə 842, N 7 (I kitab), maddə 1389, N 12 (I kitab), maddə 2466; 2019, N 1, maddələr 32, 50; Azərbaycan Respublikasının 2019-cu il 9 aprel tarixli 1563-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 28.4-cü maddə əlavə edilsin:

"28.4. İdarə Heyətinin üzvlərinin şəxsi marağı ilə bankın maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda məlumat verilməsi, habelə bankın maraqlarına zidd olan əqdlərin bağlanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir.".

**Maddə 4.** "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 3, maddə 144, N 7, maddə 602; 2009, N 7, maddə 517; 2011, N 1, maddə 11; 2013, N 12, maddə 1470; 2014, N 7, maddələr 771, 779; 2015, N 11, maddə 1263; 2016, N 3, maddə 410, N 6, maddə 976; 2017, N 7, maddələr 1286, 1294, N 12 (I kitab), maddə 2221; 2018, N 7 (I kitab), maddə 1392; 2019, N 1, maddələr 19, 33, 50; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1536-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 31.8-ci maddə əlavə edilsin:

"31.8. İdarə Heyətinin üzvlərinin şəxsi marağı ilə sığortaçının maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda məlumat verilməsi, habelə sığortaçının maraqlarına zidd olan əqdlərin bağlanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir.".

**Maddə 5.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 11, maddə 950; 2014, N 10, maddə 1161; 2015, N 11, maddə 1261; 2016, N 3, maddə 412, N 4, maddə 642, N 12, maddə 2002; 2017, N 11, maddə 1952, N 12 (I kitab), maddə 2225; 2018, N 7 (I kitab), maddə 1394; 2019, N 1, maddə 33) aşağıdakı məzmunda 6.8-ci maddə əlavə edilsin:

"6.8. Səhmdar investisiya fondunun icra orqanının üzvlərinin şəxsi marağı ilə investisiya fondunun maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda məlumat verilməsi, habelə səhmdar investisiya fondunun maraqlarına zidd olan əqdlərin bağlanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir.".

**Maddə 6.** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qa-

nununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 7, maddə 813; 2016, N 3, maddə 411, N 11, maddə 1756, N 12, maddə 2003; 2017, N 2, maddə 159, N 5, maddə 712, N 12 (I kitab), maddə 2222; 2018, N 5, maddə 893, N 7 (I kitab), maddə 1395; 2019, N 1, maddələr 33, 50, N 2, maddə 189; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel tarixli 1567-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 61.16-cı və 61.17-ci maddələr əlavə edilsin:

"61.16. Lisenziyalaşdırılan şəxslərin müşahidə şurasının və icra orqanının üzvləri, habelə lisenziyalaşdırılan şəxslərin struktur bölmələrinin (filial, nümayəndəlik və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.5-ci, 49-1.6-cı və 49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

61.17. Lisenziyalaşdırılan şəxslərin icra orqanının üzvlərinin şəxsi marağı ilə lisenziyalaşdırılan şəxslərin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən hallarda məlumat verilməsi, habelə lisenziyalaşdırılan şəxslərin maraqlarına zidd olan əqdlərin bağlanması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinin tələblərinə uyğun həyata keçirilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 may 2019-cu il*
*N 1596-VQD*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin yaradılması haqqında" 2004-cü il 21 fevral tarixli 35 nömrəli, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli, "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin yaradılması haqqında" 2007-ci il 12 mart tarixli 543 nömrəli və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 276 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1423-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 fevral tarixli 35 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 2, maddə 73, N 10, maddə 790; 2007, N 2, maddə 91; 2008, N 5, maddə 374) 2.2-ci bəndinə "daimi yaşayan" sözlərindən sonra "və ya qaçqın statusu almış" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 10, maddə 790; 2006, N 9, maddə 741; 2007, N

2, maddə 91; 2008, N 8, maddə 722; 2010, N 9, maddə 770, N 10, maddə 858, N 12, maddə 1061; 2013, N 5, maddə 520; 2014, N 9, maddə 1051) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci, 7-ci, 9-cu, 13-cü, 19-cu, 22-ci və 25-ci bəndlərə "daimi yaşayan" sözlərindən sonra "və ya qaçqın statusu almış" sözləri əlavə edilsin;

2.2. 8.1-1-ci yarımbənddə "daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə" sözləri "daimi yaşayan və ya qaçqın statusu almış əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvafiq olaraq" sözləri ilə əvəz edilsin və həmin bəndə "icazə" sözündən sonra "və ya qaçqın" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 mart tarixli 543 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 3, maddə 222; 2008, N 8, maddələr 720, 722, N 11, maddə 980; 2009, N 1, maddə 11, N 11, maddə 882; 2010, N 10, maddə 858; 2013, N 9, maddə 1043; 2014, N 9, maddə 1030; 2018, N 9, maddə 1840) ilə təsdiq edilmiş "Qüvvədən düşmüş sənədlərin dövlət reyestrinin aparılması qaydası haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.8-1-ci yarımbənd əlavə edilsin:

"8.8-1. Azərbaycan Respublikasında qaçqın statusu almış əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin qaçqın vəsiqəsi və yol sənədi;".

4. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 6, maddə 491; 2011, N 11, maddə 995; 2013, N 9, maddə 1048; 2014, N 9, maddə 1060, N 10, maddə 1177; 2015, N 2, maddə 117; 2016, N 5, maddə 867, N 11, maddə 1798; 2017, N 5, maddələr 777, 818; 2018, N 12 (I kitab), maddə 2586) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"nin 13.4.0-cı yarımbəndində "daimi yaşamaq üçün icazə" sözlərindən sonra "və ya qaçqın statusu" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 13 iyun 2019-cu il*
*N 737*

## "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Notariat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 1, maddə 40; 2001, N 10, maddə 640; 2002, N 8, maddə 478; 2003, N 6, maddə 290; 2005, N 8, maddə 717; 2006, N 1, maddə 9, N 7, maddə 590; 2007, N 6, maddə 606; 2008, N 3, maddə 174; 2009, N 1, maddə 9, N 2, maddə 71; 2010, N 7, maddə 610; 2011, N 9, maddə 795, N 12, maddə 1128; 2019, N 2, maddə 208; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 iyun tarixli 721 nömrəli Fərmanı) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Müəyyən edilsin ki:

3.1. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səla-

hiyyətlərini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

3.2. həmin Qanunun 27-ci maddəsində (birinci halda), 32-ci maddəsinin on birinci (birinci halda), 39-cu və 43-cü maddələrinin ikinci, 74-cü maddəsinin beşinci, 76-cı maddəsinin doqquzuncu və 93-cü maddəsinin ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.3. həmin Qanunun 4-cü maddəsinin birinci, ikinci və beşinci, 5-ci maddəsinin birinci və üçüncü, 6-cı maddəsinin ikinci və üçüncü, 7-ci maddəsinin birinci, ikinci və dördüncü, 7-1-ci maddəsinin birinci, ikinci və dördüncü, 10-cu maddəsinin üçüncü, altıncı və yeddinci, 14-cü maddəsinin birinci, ikinci və yeddinci, 16-cı maddəsinin birinci, ikinci və üçüncü, 17-ci maddəsinin ikinci, 20-ci maddəsinin birinci, ikinci, üçüncü və dördüncü, 21-ci maddəsinin birinci, ikinci (dövlət notariat arxivinin işinin təşkilinə və səlahiyyətinə dair Əsasnamənin təsdiq edilməsi Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə razılaşdırılmaqla), üçüncü və altıncı, 22-ci maddəsinin ikinci, 24-cü maddəsinin birinci, ikinci (hər iki halda), dördüncü (birinci halda), beşinci və altıncı (hər iki halda) hissələrində, 25-ci maddəsinin birinci, ikinci, dördüncü, altıncı və yeddinci hissələrində, 25-1-ci maddəsinin birinci hissəsində, üçüncü hissəsinin birinci və ikinci cümlələrində, doqquzuncu hissəsində, 26-1-ci maddəsinin birinci hissəsində, ikinci hissəsinin birinci və üçüncü cümlələrində, üçüncü və beşinci hissələrində, 26-2-ci maddəsinin yeddinci və 68-ci maddəsinin dördüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində isə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.4. həmin Qanunun 3-cü maddəsinin səkkizinci (hər iki halda), 4-cü maddəsinin altıncı, 10-1-ci və 12-ci maddələrinin birinci, 14-cü maddəsinin altıncı, 25-ci maddəsinin on birinci və on ikinci hissələrində, 26-2-ci maddəsinin dördüncü hissəsində, altıncı hissəsinin 1-ci və 4-cü bəndlərində, doqquzuncu və onuncu hissələrində, 29-cu maddəsinin beşinci hissəsində (birinci halda), 32-ci maddəsinin doqquzuncu hissəsinin birinci cümləsində və ikinci cümləsində (birinci halda), onuncu, on birinci (ikinci halda) hissələrində, 33-cü maddəsinin beşinci, 74-cü maddəsinin yeddinci hissələrində, 76-cı maddəsinin altıncı hissəsində və 79-cu maddəsində (hər üç halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

3.5. həmin Qanunun 15-ci maddəsində, 18-ci maddəsinin adında və birinci hissəsində, 28-ci maddəsinin ikinci, 45-ci maddəsinin birinci və ikinci, 64-cü maddəsinin birinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının, 33-cü maddəsinin birinci və ikinci, 35-ci maddəsinin beşinci, 41-ci maddəsinin birinci, 44-cü maddəsinin birinci və ikinci (hər iki halda), 48-ci maddəsinin birinci və üçüncü (hər iki halda) hissələrində, 50-ci maddəsində (hər iki halda), 64-cü maddəsinin ikinci hissəsində, 65-ci maddəsində, 67-ci maddəsinin birinci və üçüncü hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələri həyata keçirirlər;

3.6. həmin Qanunun 12-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini, müvafiq olaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Maliyyə Nazirliyi və Vergilər Nazirliyi həyata keçirirlər;

3.7. həmin Qanunun 24-cü maddəsinin dördüncü hissəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikası Vergilər Nazirliyinin yerli qurumları həyata keçirirlər;

3.8. həmin Qanunun 27-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirirlər;

3.9. həmin Qanunun 29-cu maddəsinin beşinci hissəsində (ikinci halda) nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti

orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi birgə həyata keçirirlər;

3.10. həmin Qanunun 46-cı maddəsinin birinci hissəsində "Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müayinədən keçməsi barədə arayış" dedikdə avtonəqliyyat vasitəsinin axtarışda olub-olmadığı barədə və həmin avtonəqliyyat vasitəsinin üzərinə həbs qoyulub-qoyulmadığı barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsi tərəfindən verilən arayış nəzərdə tutulur;

3.11. həmin Qanunun 32-ci maddəsinin yeddinci hissəsində və 58-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi həyata keçirir;

3.12. həmin Qanunun 58-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini rayon, şəhər və şəhər rayonu icra hakimiyyəti orqanı yanında yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər;

3.13. həmin Qanunun 90-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları həyata keçirirlər;

3.14. həmin Qanunun 32-ci maddəsinin doqquzuncu hissəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir;

3.15. həmin Qanunun 4-cü maddəsinin dördüncü hissəsində və 14-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası başa düşülür.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 iyun 2019-cu il*
*N 754*

### Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1, 5, 18, 61 və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyası baxımından şərh edilməsinə dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTITUSIYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri Teyyub Muxtarov, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və böyük məsləhətçisi

Kəmalə Paşayevanın,

ekspert Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Rahim Məmmədovun,

mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifov, Bakı Apelyasiya Məhkəməsinin hakimi Sahibxan Mirzəyev, Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini Mürvət Həsənov və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Beynəlxalq əməkdaşlıq idarəsinin qrup rəhbəri Emil Hüseynovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1, 5, 18, 61 və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyası baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim M.Muradovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək, cəza təyin edilərkən xarici dövlətlərin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluqların nəzərə alınmasının mümkünlüyü baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 1, 5, 18, 61 və 65-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 148-ci maddəsi və "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında" Minsk Konvensiyasının (bundan sonra - Minsk Konvensiyası) müvafiq maddələri ilə əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin 25 sentyabr 2018-ci il tarixli hökmü ilə N.Məhərrəmov Cinayət Məcəlləsinin 177.2.3 və 177.2.4-cü maddələri ilə təqsirli bilinərək azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hökmündən N.Məhərrəmovun müdafiəçisi apellyasiya şikayəti, dövlət ittihamçısı isə apellyasiya protesti vermişlər. Apellyasiya şikayətində hökmün dəyişdirilməsi, məhkum barəsində Cinayət Məcəlləsinin 65.3-cü maddəsinin tətbiq edilməsi, apellyasiya protestində isə hökmün ləğv edilməsi, məhkuma məhkəməyə verildiyi ittiham həcmində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirli bilinərək cəza təyin edilməsi xahiş olunmuşdur.

Apellyasiya protestinin əsas dəlillərindən biri birinci instansiya məhkəməsi tərəfindən cinayət qanunvericiliyinin tələblərinə uyğun olmayaraq, N.Məhərrəmovun Rusiya Federasiyası ərazisində törətmiş olduğu cinayət əməlinə görə məhkum olunması faktının cinayətin residivinin yaranma əsası hesab edilərək cəzanı ağırlaşdıran hal kimi nəzərə alınması, məhkumun bu səbəbdən cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməsinin müəyyən edilməsi ilə bağlı olmuşdur.

Gəncə Apellyasiya Məhkəməsi cəza təyin edilərkən xarici dövlətin ərazisində qəsdən törədilmiş cinayət əməlinə görə məhkum olunmuş şəxsin məhkumluğunun nəzərə alınıb-alınmaması ilə bağlı məhkəmə təcrübəsində fikir ayrılığı yarandığından qanunvericiliyin yuxarıda qeyd edilən maddələrinin əlaqəli şəkildə şərh edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdə qaldırılan məsələ ilə bağlı cinayətlərin residivi anlayışının və ictimai təhlükəlilik dərəcəsinin, cinayət işləri sahəsində beynəlxalq əməkdaşlığın

formalarının və cinayət icraatında beynəlxalq müqavilələrin tətbiq olunmasının əsaslarının açıqlanmasını zəruri hesab edir.

Cinayət Məcəlləsinin 18.1-ci maddəsində cinayətlərin residivinin anlayışı verilmişdir. Həmin maddəyə əsasən, qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini yaradır.

Konstitusiya Məhkəməsinin Plenumu cinayətlərin residivinin təqsirləndirilən şəxsin şəxsiyyətini xarakterizə edən hal olduğunu qeyd etməklə bir sıra qərarlarında vurğulamışdır ki, məhkumluq təkcə şəxsin məhkum olunması və ona cəzanın təyin edilməsi faktı ilə şərtləndirilmir. Məhkumluq şəxs tərəfindən təkrarən cinayət törədilərkən cinayət qanunvericiliyi ilə müəyyən olunmuş hüquqi nəticələrə səbəb olan məhkumun hüquqi vəziyyətini ifadə edir; şəxsdə olan ödənilməmiş və ya götürülməmiş məhkumluq, xüsusilə onunla dövlət arasında cinayət-hüquqi tənzimləmə əsasında formalaşan, bu şəxs tərəfindən yeni cinayətlər törədilərkən onun şəxsiyyətinin və törətdiyi cinayətlərin yüksək ictimai təhlükəli kimi qiymətləndirilməsinə xidmət edən ictimai-hüquqi münasibətləri yaradır və buna görə onun barəsində cinayət hüquqi xarakterli daha ağır cəza tədbirlərinin tətbiqini nəzərdə tutur ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinin şərh olunması ilə bağlı Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin müraciətinə dair" 2009-cu il 25 may tarixli Qərar).

Qeyd olunmalıdır ki, müasir dövrdə dövlətlərin cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətlərinin koordinasiyası böyük əhəmiyyət kəsb edir. Bu sahədə ədalət mühakiməsinin əsas prinsiplərini müəyyən edən beynəlxalq hüquq normalarının davamlı inkişafı və texniki tərəqqinin nailiyyətləri belə əməkdaşlığı daha da əlçatan edir.

Cinayət işləri sahəsində əməkdaşlığın mahiyyəti, əsasən, bir dövlətin səlahiyyətli orqanlarının sorğusu əsasında digər dövlətin müvafiq orqanlarının müəyyən hərəkətləri, o cümlədən sorğu verən dövlətin ərazisində həyata keçirilən cinayət təqibi və ya məhkəmələrində baxılan işlər ilə əlaqədar müəyyən prosessual hərəkətləri həyata keçirməsindən ibarətdir.

Cinayət işləri üzrə ədalət mühakiməsi sahəsində beynəlxalq əməkdaşlığın üç əsas formasını qeyd etmək olar:

Onun ənənəvi forması şəxslərin cinayət təqibi və ya hökmün icrası məqsədi ilə verilməsidir (ekstradisiya);

İkinci forma istintaq və ya digər prosessual hərəkətlərin həyata keçirilməsi haqqında verilən sorğuların cavablandırılmasıdır (məsələn, dindirmə, axtarış və sübutların əldə edilməsinə yönələn digər hərəkətlərin həyata keçirilməsi, prosessual sənədlərin verilməsi və s.);

Üçüncü forma isə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş şəxslərin cəzanın çəkilməsi üçün verilməsidir.

Bununla yanaşı, əməliyyat-axtarış sahəsində olan fəaliyyət, eləcə də məhkəmə hökmlərinin qarşılıqlı tanınması və icra edilməsi də cinayət prosesi çərçivəsində beynəlxalq əməkdaşlığın mühüm istiqamətlərindəndir.

Beynəlxalq hüquqi yardımın hüquqi əsasları beynəlxalq müqavilələrlə və ya iştirakçı dövlətlərin cinayət-prosessual qanunvericiliyi ilə yaranır.

Cinayət işləri üzrə beynəlxalq əməkdaşlığın çərçivələri bir sıra beynəlxalq müqavilələr ilə müəyyən edilmişdir. Onların sırasında "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyası (Strasburq, 20 aprel 1959-cu il), "Ekstradisiya haqqında" Avropa Konvensiyası (Strasburq, 13 dekabr 1957-ci il) kimi sənədləri qeyd etmək olar. MDB çərçivəsində hüquqi yardım sahəsində əməkdaşlığın həyata keçirilməsinə yönələn mexanizmlərdən biri 22 yanvar 1993-cü il tarixli Minsk Konvensiyadır.

Konstitusiyanın 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq

normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir (Konstitusiyanın 12-ci maddəsinin II hissəsi).

Azərbaycan Respublikasının tərəfdar cıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir (Konstitusiyanın 148-ci maddəsinin II hissəsi).

"Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 15 və 16-cı maddələrinə əsasən, Azərbaycan Respublikası beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə dönmədən əməl etməlidir. Azərbaycan Respublikası beynəlxalq müqavilələrə vicdanla əməl edilməsi prinsipinə uyğun olaraq, Azərbaycan Respublikasının iştirak etdiyi ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrin digər iştirakçılarının da bu müqavilələrdən irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün səylər göstərir. Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin yerinə yetirilməsini təmin edir.

Bununla yanaşı, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 23.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, həmin müqavilələrdə əks etdirilmiş normaların tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul olunmasını tələb edən hallar istisna olmaqla, birbaşa tətbiq edilməlidir.

Azərbaycan Respublikasının 2 oktyabr 2017-ci il tarixli Qanunu ilə qoşulduğu 23 may 1969-cu il tarixli "Müqavilələr hüququ haqqında Vyana Konvensiyası"nın 11-ci maddəsinə görə, dövlətin müqavilənin onun üçün məcburiliyinə razılığı imzalama, müqaviləni təşkil edən sənədlərin mübadiləsi, ratifikasiya, qəbuletmə, təsdiqetmə və ya qoşulma, yaxud razılaşdırılan istənilən digər vasitə ilə ifadə oluna bilər.

Dövlət beynəlxalq müqaviləni ratifikasiya etməklə öz üzərinə beynəlxalq öhdəlik götürür və buna görə də həmin öhdəliyi vicdanla yerinə yetirməlidir. Bu öhdəlik maddi və prosessual xarakterli olmaqla səlahiyyətli dövlət orqanlarından müvafiq qanuni hərəkətlərin edilməsini tələb edir.

Gəncə Apellyasiya Məhkəməsinin müraciətində qeyd edilmiş Minsk Konvensiyasına dair aşağıdakılar göstərilməlidir.

Minsk Konvensiyası Azərbaycan Respublikasına münasibətdə 11 iyul 1996-cı il, Rusiya Federasiyasına münasibətdə isə 10 dekabr 1994-cü il tarixində qüvvəyə minmişdir. Daha sonra 7 oktyabr 2002-ci il tarixində MDB iştirakçısı olan dövlətlər eyniadlı Kişinyov Konvensiyasını qəbul etmişlər. Həmin Konvensiyanın 120-ci maddəsinin 3 və 4-cü bəndlərinə görə, 1993-cü il 22 yanvar tarixli Minsk Konvensiyası bu Konvensiyanın iştirakçısı olan dövlətlər arasında öz qüvvəsini itirir. Bu Konvensiyanın iştirakçısı olan dövlətlər və onların iştirakçısı olan, barələrində bu Konvensiya qüvvəyə minməyən dövlətlər arasındakı münasibətlərə Minsk Konvensiyasının tətbiqi davam edir.

Rusiya Federasiyası Kişinyov Konvensiyasını ratifikasiya etmədiyindən onunla Azərbaycan Respublikası arasında münasibətlər Minsk Konvensiyası ilə tənzimlənir.

Minsk Konvensiyasının 76-cı maddəsində qeyd olunmuşdur ki, Razılığa gələn Tərəflərdən hər biri cinayətlərin istintaqı aparılarkən və məhkəmələr tərəfindən cinayət işlərinə baxılarkən öz qanunvericiliyində nəzərdə tutulan məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları, hansı Razılığa gələn Tərəfin ərazisində baş verməsindən asılı olmayaraq nəzərə alırlar.

Minsk Konvensiyasına 28 mart 1997-ci il tarixində Protokolla əlavə edilmiş 76.1-ci maddəyə əsasən, şəxsin xüsusilə təhlükəli residivist hesab edilməsi, cinayətin təkrar törədilməsi, şərti məhkum etmə, hökmün icrasının təxirə salın-

ması və cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı vəzifələrin pozulması faktının müəyyən edilməsi kimi məsələlərin həlli zamanı Razılığa gələn Tərəflərin ədliyyə müəssisələri keçmiş SSRİ-nin və onun tərkibinə daxil olmuş ittifaq respublikalarının məhkəmələrinin (tribunallarının), həmçinin Razılığa gələn Tərəflərin məhkəmələrinin çıxardığı hökmləri tanıya və nəzərə ala bilərlər.

Lakin qeyd olunmalıdır ki, yuxarıda göstərilən Protokol Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməmişdir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, Azərbaycan Respublikasının tərəfdar çıxmadığı beynəlxalq müqavilələr üzrə xarici dövlətin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluqların nəzərə alınması yolverilməzdir.

Konstitusiyanın 63-cü maddəsinin V hissəsinə əsasən, məhkəmənin hökmü olmasa, kimsə cinayətdə təqsirli sayıla bilməz. Cinayət Məcəlləsinin 1.3-cü maddəsinə görə, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər. Həmin Məcəllənin qanunçuluq prinsipi adlanan 5.1-ci maddəsinə müvafiq olaraq, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza və digər cinayət-hüquqi xarakterli tədbirlər yalnız bu Məcəllə ilə müəyyən edilir.

Cinayət hüququnda cinayətlərin residivi anlayışına daxil edilmiş əvvəllər məhkum olunmuş şəxs anlayışı, barəsində məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü olan və cinayət qanunu ilə nəzərdə tutulan cəza təyin edilmiş şəxsi ehtiva edir. Belə ki, Cinayət Məcəlləsinin 83.1-ci maddəsinə əsasən, cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir.

Cinayət Məcəlləsinin 61.2-ci maddəsinə görə isə cəza təyin edilərkən həmin Məcəllənin 61.1.1-61.1.13-cü maddələrində göstərilməmiş hallar cəzanı ağırlaşdıran hal qismində nəzərə alına bilməz.

Konstitusiyanın və Cinayət Məcəlləsinin yuxarıda qeyd olunan normalarının mənası baxımından belə nəticəyə gəlmək olar ki, şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız Cinayət Məcəlləsinə daxil olunduqdan sonra tətbiq edilə bilər və məhkumluğun yaranması üçün Azərbaycan Respublikasının məhkəmələri tərəfindən çıxarılmış və qanuni qüvvəyə minmiş ittiham hökmü olmalıdır.

Bu baxımdan xarici dövlətlərin məhkəmə hökmlərinin Azərbaycan Respublikasının məhkəmələri tərəfindən tanınması və nəzərə alınması qaydasının müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra - Cinayət-Prosessual Məcəlləsi) 521-ci maddəsində xarici dövlətlərin məhkəmələrinin hökmlərinin icrası qaydası nəzərdə tutulmuşdur. Həmin maddəyə görə, Azərbaycan Respublikasının məhkəmələri xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının icrası məsələlərinə bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına müvafiq olaraq baxırlar.

Azərbaycan Respublikasının da daxil olduğu MDB ölkələrinin təcrübəsinə nəzər yetirdikdə isə cinayətlərin residivi müəyyən edilərkən xarici dövlətlərin məhkəmələri tərəfindən çıxarılmış hökmlərin tanınması və nəzərə alınmasının müxtəlif qaydada həyata keçirildiyini müşahidə etmək olar. Məsələn, bəzi dövlətlərin (Ukrayna, Özbəkistan, Qırğızıstan və s.) Cinayət Məcəllələrində cəza təyin edilərkən xarici dövlətlərin məhkəmələri tərəfindən çıxarılmış hökmlər üzrə yaranmış məhkumluqların nəzərə alınmasının mümkünlüyü müəyyən edilmişdir.

Moldova Respublikasının Cinayət Məcəlləsinin 34-cü maddəsinin 4-cü bəndinə görə, residivin müəyyən edilməsi zamanı Moldova Respublikasının müvafiq məhkəmə instansiyası tərəfindən tanınmış xarici dövlətin qüvvəyə minmiş ittiham hökmləri nəzərə alınır.

Özbəkistan Respublikası Cinayət Məcəlləsinin 34-cü maddəsində isə göstərilmişdir ki, şəxsin xüsusilə təhlükəli residivist kimi tanınması məsələsinə baxılarkən xarici dövlətlərin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluğu nəzərə alına bilər.

Beləliklə, qloballaşma prosesləri, əhalinin miqrasiyasının fəallaşması, transmilli cinayətkarlığın artması və s. faktorların təsiri altında dövlətlərin cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətinin əhəmiyyət kəsb etdiyini nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayətlərin residivi məsələsi həll edilərkən xarici dövlətlərin məhkəmə hökmlərinin tanınması və nəzərə alınması qaydasının cinayət və cinayət-prosessual qanunvericiliyində müəyyən edilməsi məqsədəuyğun olardı.

Belə ki, hüquqi müəyyənlik prinsipi azadlıq və toxunulmazlıq hüququnun məhdudlaşdırılması şərtlərinin milli qanunvericilikdə aydın və dəqiq təsbitini, hüquq tətbiq etmə praktikasının qanunun eyni cür və dürüst təfsirinə əsaslanmasını, müxtəlif məhkəmə qərarlarında hüququn tətbiqi məsələlərində ardıcıllığın gözlənilməsini, yeni qanunun tətbiqi təcrübəsinin şəxslər üçün gözlənilən olmasını nəzərdə tutur.

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi müəyyənlik prinsipi ilə bağlı formalaşdırdığı hüquqi mövqeyə görə, hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiq edənin hərəkətlərinin isə qabaqcadan bilməsinə imkan verməlidir. Bu umumi hüquq prinsipindən irəli gələrək Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, cinayət törətməkdə təqsirli bilinən şəxsin vəziyyətini ağırlaşdıran və cəza təyini zamanı əhəmiyyət kəsb edən cinayət qanununun müvafiq müddəası qeyri-müəyyən və ikimənalı olmamalıdır ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2012-ci il 2 aprel tarixli Qərar).

Müraciətdə qaldırılan digər məsələ işə baxan məhkəmənin ittiham aktında göstərilməyən ağırlaşdırıcı halları cəza təyin edərkən nəzərə alması və buna uyğun cəzaçəkmə müəssisəsinin növünü seçməsinin mümkünlüyü ilə bağlıdır.

Konstitusiya Məhkəməsinin Plenumu bununla bağlı qeyd edir ki, ədalət mühakiməsinin həyata keçirilməsi funksiyasını reallaşdırarkən məhkəmənin həll etdiyi məsələlərin dairəsi məhkəmə baxışının hədləri ilə müəyyən edilir. Məhkəmə baxışının hədlərini nəzərdə tutan Cinayət-Prosessual Məcəlləsinin 318.1-ci maddəsinə əsasən, məhkəmə baxışı zamanı cinayət işinə, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarına və ya xüsusi ittiham qaydasında şikayətə yalnız təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş və ya məhkəməyə verilən ittiham daxilində baxılır. Məhkəmə baxışı nəticəsində məhkəmə təqsirləndirilən şəxsin əməlini ağır cinayətdən daha yüngül cinayət əməlinə tövsif etmək, habelə ona qarşı irəli sürülmüş ittihamdan ayrı-ayrı bəndləri çıxartmaq hüququna malikdir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı hüquqi mövqeyə görə, cinayət prosesində hədd kateqoriyası prosessual şərt kimi çıxış edir. Məhkəmə baxışının hədləri isə təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş və məhkəmədə müdafiə edilən ittihamla şərtlənən məhkəmə tədqiqatının və qərarının qanunla müəyyən edilmiş sərhədləridir.

Cinayət-Prosessual Məcəlləsinin 318.1-ci maddəsindən göründüyü kimi, birinci

instansiya məhkəməsində məhkəmə baxışı yalnız təqsirləndirilən şəxslər barəsində və məhkəməyə verilmiş ittiham daxilində aparılmaqla ittiham aktının müəyyən dairəsi ilə məhdudlaşmış olur.

Məhkəmə baxışının hədlərinin belə məhdudlaşdırılması cinayət məsuliyyətinə cəlb etmənin qanuni qaydasının və təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi vəzifəsindən irəli gəlir. Məhkəmə məhkəmə baxışının təyin edilməsi barədə qərarda müəyyən edilmiş ittihamın hədlərindən kənara çıxa bilməz.

Cinayət Prosessual Məcəlləsinin 318.2-ci maddəsinə görə, məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında, habelə təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətlərin əlamətlərinin mövcudluğu barədə zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə məhkəmə baxışını dayandıraraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının 10 (on) gün müddətində təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarır.

Məhkəmə baxışı zamanı ittihamın ağırlaşdırılmasına səbəb ola biləcək hal aşkar edildikdə, qeyd olunan şəxslərin vəsatəti olmadan məhkəmənin öz təşəbbüsü ilə məhkəmə baxışını dayandıraraq işi və ya materialları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarmaq, habelə barəsində ittiham irəli sürülməmiş və məhkəməyə verilməmiş istənilən digər şəxs haqqında öz təşəbbüsü ilə bu və ya digər, xüsusilə də ittiham yönümlü qərar qəbul etmək səlahiyyəti (hüququ) qanunvericilikdə nəzərdə tutulmamışdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi Kollegiyasının 7 iyul 2011-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 2012-ci il 17 aprel tarixli Qərarı).

Törədilmiş cinayət əməlinə görə irəli sürülmüş ittiham daxilində cəza təyin edilməsi isə qanunverici tərəfindən məhkəmənin səlahiyyətinə aid edilmişdir. Belə ki, Cinayət Məcəlləsinin 58.3-cü maddəsinin məzmununa uyğun olaraq, məhkəmə törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsini, təqsirkarın şəxsiyyəti, eləcə də cəzanı yüngülləşdirən və ağırlaşdıran halları, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsirini nəzərə alaraq cəza təyin edir.

Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Cəzanın təyin edilməsinin ümumi əsasları Cinayət Məcəlləsinin Ümumi hissəsi ilə müəyyən edilmişdir. Həmin Məcəllənin 58.1-ci maddəsinə görə, törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Göründüyü kimi, məhkəmə cinayət törətməkdə təqsirli bilinən şəxsə Cinayət Məcəlləsinin Ümumi hissəsinin müddəaları nəzərə alınmaqla Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hədlərdə ədalətli cəza təyin edir.

Beləliklə, məhkəmənin irəli sürülmüş ittiham daxilində cinayətin tövsifini dəyişmədən cinayətin residivini cəzanı ağırlaşdıran hal kimi nəzərə alaraq Cinayət Məcəlləsinin müddəalarını rəhbər tutmaqla törədilmiş əmələ uyğun cəza təyin etməsi və cəzaçəkmə müəssisəsinin növünü seçməsi ittihamdan kənara çıxma kimi qiymətləndirilə bilməz.

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu xüsusilə vurğulayır ki, ibtidai araşdırmanı həyata keçirən orqanlar cinayət işi üzrə istintaq apararkən təqsirləndirilən şəxsin ölkə daxilində,

həmçinin xarici dövlətlərdə əvvəllər cinayət törətməsi və məhkumluğunun olub-olmaması faktının müəyyən edilməsi məsələsinə xüsusi diqqətlə yanaşmalıdırlar.

Belə tələb həmçinin Cinayət-Prosessual Məcəlləsinin 140.0.5-ci maddəsindən irəli gəlir. Həmin maddəyə görə, cinayət prosesi gedişində təqsirləndirilən şəxsin məhkumluğunun olması və ona müəyyən cəza təyin edilməsi yalnız məhkəmə hökmünün surətinin əvvəlcədən əldə edilməsi və tədqiqi ilə müəyyən edilə bilər.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 148-ci maddəsinin II hissəsinə, Cinayət Məcəlləsinin 1.2-ci maddəsinin və Cinayət-Prosessual Məcəlləsinin 521-ci maddəsinin müddəalarına uyğun olaraq, yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə xarici dövlətlərin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluğun Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəza təyin edilərkən nəzərə alınmasına yol verilir;

- Müasir dövrdə dövlətlərin cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətlərinin və cinayət işləri üzrə dövlətlərarası əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə xarici dövlətlərin məhkəmə hökmlərinin tanınması və nəzərə alınması qaydasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 1.2-ci maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 521-ci maddəsinin müddəalarına uyğun olaraq, yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə xarici dövlətlərin məhkəmə hökmlərinə əsasən yaranmış məhkumluğun Azərbaycan Respublikasının məhkəmələri tərəfindən cəza təyin edilərkən nəzərə alınmasına yol verilir.

2. Müasir dövrdə dövlətlərin cinayətkarlıqla mübarizə sahəsində fəaliyyətlərinin və cinayət işləri üzrə dövlətlərarası əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə xarici dövlətlərin məhkəmə hökmlərinin tanınması və nəzərə alınması qaydasının Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
Bakı şəhəri, 7 iyun 2019-cu il